# AZƏRBAYCAN DİLİ

# 3

tədris dili

**DƏRSLİK**



1-ci hissə





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

RAFİQ İSMAYILOV, ÜLKƏR NURULLAYEVA, ŞƏHLA ZAHİDOVA,
İRADƏ BAYRAMOVA, AYSEL XANALIYEVA, KÖNÜL CƏLİLOVA

# AZƏRBAYCAN DİLİ 3

(tədris dili)

Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün
Azərbaycan dili fənni üzrə dərslik
(1-ci hissə)

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**trm@arti.edu.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# İçindəkilər

## 1 FƏRD VƏ TOPLUM




| Fəsillər | səhifə |
|---|---|
| 1 • DÜRÜSTLÜK | 8 |
| 2 • DOSTLUQ | 12 |
| 3 • MƏRHƏMƏT | 18 |
| 4 • MƏSULİYYƏT | 22 |
| 5 • NİKBİNLİK | 26 |
| Ümumiləşdirici təkrar | 31 |


## 2 DÜNYAMIZI TANIYAQ


| Fəsillər | səhifə |
|---|---|
| 1 • BİZ AZƏRBAYCANLIYIQ | 34 |
| 2 • DÜNYA XALQLARI | 38 |
| 3 • TARİXİ ABİDƏLƏR | 42 |
| 4 • MİLLİ BAYRAMLAR | 46 |
| 5 • SƏYAHƏT | 50 |
| Ümumiləşdirici təkrar | 55 |




## 3 QƏRİBƏ HEYVANLAR




| Fəsillər | səhifə |
|---|---|
| 1 • MAMONT VƏ FİL | 58 |
| 2 • NADİR MEŞƏ HEYVANLARI | 62 |
| 3 • MANQUST | 66 |
| 4 • ANTARKTİDA SAKİNLƏRİ | 72 |
| 5 • DELFİN | 76 |
| Ümumiləşdirici təkrar | 79 |


## 4 TƏBİİ FƏLAKƏTLƏR


| Fəsillər | səhifə |
|---|---|
| 1 • SEL | 82 |
| 2 • MEŞƏ YANĞINLARI | 86 |
| 3 • DƏNİZDƏ FIRTINA | 92 |
| 4 • SUNAMİ | 98 |
| 5 • DAŞQIN | 100 |
| Ümumiləşdirici təkrar | 103 |




# Kitabınla tanış ol

**SÖZ BOĞÇASI**
Mövzu ilə bağlı yeni sözlər

**• Söz boğçası •**
- centlmen
- soyuqqanlı
- klub
- mister

**BUNLARI BİLMƏLİYİK**
Dil qaydaları və nitq bacarıqları ilə bağlı ümumi anlayışlar

**DİQQƏT ET**
Dil qaydaları ilə bağlı əlavə məlumatlar

**Dil qaydaları**

**3 A** Hansı bəndlərdə koala haqqında məlumat verilir?

*A. Evkalipt ağacının yarpaqları*
*B. Koalanın bədəninin uzunluğu*
*C. Koala Avstraliyada yaşayır.*
*Ç. Koalanın suya olan ehtiyacı*
*D. Koala otyeyən heyvandır.*

• Bunları bilməliyik • SÖZ, SÖZ BİRLƏŞMƏSİ, CÜMLƏ

• Söz və söz birləşməsi müəyyən anlayışı ifadə edir. Cümlə isə fikir bildirir.

| *söz* | *söz birləşməsi* | *cümlə* |
|---|---|---|
| heyvan | kisəli heyvan | Koala kisəli heyvandır. |
| *anlayış* | *konkret anlayış* | *fikir* |

**B** **Verilmiş söz sıralarını cədvəl üzrə qruplaşdırın.**
- meşə heyvanı
- Koala meşə heyvanıdır.
- Tenrekin iynəsi çoxdur.
- tenrekin iynəsi
- güclü xortum
- Filin xortumu güclüdür.
- Tənbəl koala çox yatır.
- tənbəl koala
- ağacın yarpağı
- Ağacın yarpağı yaşıldır.
- qəribə heyvan
- Kenquru qəribə heyvandır.

| *söz birləşməsi* | *cümlə* |
|---|---|
| | |

**C** **Verilmiş söz və söz birləşmələrindən cümlələr düzəldin.**
*1. Adil, yaxın dost, nağıl kitabı, bağışlamaq;*
*2. Nənə, bayram axşamı, şirin çörək, bişirmək;*
*3. Murad, kiçik bacı, rəqs dərnəyi, aparmaq;*
*4. Sevda, rəsm albomu, gözəl şəkillər, çəkmək;*
*5. Baba, hər axşam, nəvə, maraqlı nağıl, danışmaq.*

• Diqqət et •
Cümlədə sözlər arasında əlaqə yaratmaq üçün çox zaman onlara şəkilçilər artırılır.
*Aqil pəncərədən baxır.*

3-cü bölmə • QƏRİBƏ HEYVANLAR 65

**YADDA SAXLA**
Nitq bacarıqları ilə bağlı yeni anlayışlar

• Yadda saxla • **Yarımbaşlıqlar**

İnformativ mətndə verilən məlumatlar, adətən, **yarımbaşlıqlar** altında qruplaşdırılır. Yarımbaşlıqlar oxucuya lazım olan məlumatı tez tapmağa kömək edir. Yarımbaşlıqlar, adətən, sual cümləsi və ya söz birləşməsi şəklində ifadə olunur.

**FAYDALI MƏSLƏHƏT**
Dil qaydaları və nitq bacarıqları ilə bağlı tövsiyələr

**Faydalı məsləhət**

Belə sözlərin düzgün yazılışını müəyyən etmək üçün sözə saitlə başlanan hissəcik artırmaq olar. Məsələn: *məktəb**in**, şagird**ə**, bulud**u*** və s.

# 1 FƏRD VƏ TOPLUM

**A** **Şəkli şərh etməklə fərd və toplum münasibətləri haqqında danışın. Toplumda hörmət qazanmaq üçün insana hansı mənəvi keyfiyyətlər lazımdır?**



**• Söz boğçası •**

• fərd • toplum • mənəvi dəyər • davranış

**B** **Şəkillər üzrə danışın. Hər bir şəklə aid mənəvi dəyər bildirən açar söz düşünün. Oğlanın davranışlarına münasibət bildirin.**



**C** **Ətraf mühiti qorumaq üçün nə etmisiniz? Sizcə, bunun topluma hansı faydası olub?**

## DÜNYANI DƏYİŞMƏK İSTƏYƏN QIZ

Gecə güclü külək əsmişdi. Dənizin dalğaları minlərlə balığı qumlu sahilə atmışdı.

Səhər Aygün atası ilə dəniz kənarına gəlmişdi. O, qumda çapalayan balıqları bir-bir götürüb dənizə atırdı. Atası ona yaxınlaşıb dedi:

– Qızım, gör sahildə nə qədər balıq var. Sənin əziyyətin heç nəyi dəyişməyəcək.

Aygün əyilib yerdən növbəti balığı götürdü və dedi:

– Yox, ata, mənim əziyyətim bax bu balıq üçün hər şeyi dəyişəcək.

Aygün bunu deyib əlindəki balığı dənizə atdı. Ata gülümsəyib qızının başını sığalladı.



**Ç** **Mətnin ideyasını müəyyən edin. Mətndə hansı cümlə ideyanın açılmasına kömək edir?**

**D** **Mənəvi dəyər bildirən sözləri həyatdan nümunələr gətirməklə izah edin.**

*mərhəmət, yardımsevərlik, dostluq, məsuliyyət, vətənpərvərlik, qənaətcillik, qayğıkeşlik*

•fəsil• 1

# DÜRÜSTLÜK

**1 A “Dürüstlük” nə deməkdir? Həyatdan nümunə gətirməklə izah edin.**

## ANAYA MƏKTUB
1-ci hissə

Elxan tənəffüsdə məktəbin həyətində uşaqlarla qaçdı-tutdu oynadı. Zəng vurulanda pörtmüş halda sinfə qayıtdı. Müəllim onun qızarmış sifətinə baxıb dedi:

– Elxan, tənəffüsdə bu qədər qaçma. Tərləyib xəstələnərsən.

Dərsin sonunda müəllim Elxana bir zərf uzadıb dedi:

– Bunu anana ver. Qoy oxuyub cavab versin.

Elxan düşündü ki, müəllim məktubda ondan şikayətlənib: “Kaş ki məni danlayaydı, cəza verəydi. Anam bu məktubu oxusa, hirslənəcək. O, xəstədir. Ona əsəbiləşmək olmaz”.

Bu həftəsonu müəllim şagirdləri Şamaxı rəsədxanasına aparmalı idi. Neçə gün idi ki, sinifdə hamı ekskursiya haqqında danışırdı. Elxan da bu gəzintiyə getmək istəyirdi. Amma ailəsinin maddi durumuna görə anasına bu haqda heç nə demək istəmirdi. Bir tərəfdən də bu məktub...

**• Söz boğçası •**
- pörtmək
- rəsədxana
- ekskursiya
- maddi durum



Ertəsi gün müəllim Elxanı yanına çağırdı:

– Elxan, məktubu anana çatdırdın?

– Bəli, müəllim...

Bunu deyəndə Elxan başını aşağı saldı. Öz-özünə düşündü: “Görəsən, müəllim niyə məktubu soruşur?! Nəyin cavabını gözləyir ki?!”

## Nə anladın?

**B Mətnlə bağlı suallara cavab verin.**

1. Nə üçün Elxan ekskursiya haqqında anasına heç nə deməmişdi?
2. Mətndən Elxanın xarakterini göstərən cümlələri tapıb oxuyun.

## Düşün və cavab ver

**C** **"Bir tərəfdən də bu məktub..." cümləsini necə başa düşürsünüz?**

**Ç** **Sizcə, Elxan məktubu anasına çatdırdımı?**

**D** **Sizcə, müəllim məktubda nə yazmışdı? Mətnin davamını oxuyun. Təxminlərinizlə müqayisə edin.**

**2-ci hissə** Şənbə günü yetişdi. Uşaqlar məktəbin həyətinə toplaşdılar. Lap bayram ab-havası vardı. Gəzinti həyəcanı bütün uşaqları bürümüşdü. Hamı səbirsizliklə yola düşəcəkləri vaxtı gözləyirdi.

Elxangilin evləri məktəbin yanında idi. Pəncərədən məktəbin həyəti görünürdü. O, avtobusa minən sinif yoldaşlarına baxır, onlarla gəzintiyə gedə bilmədiyi üçün çox kədərlənirdi.



Elxan nə edəcəyini bilmirdi. O, fikirli halda çantadan kitab-dəftərini çıxardı. Bu zaman kitabların arasından zərf sürüşüb yerə düşdü. Elxan zərfi açıb məktubu oxumağa başladı. Son cümlələri oxuyanda təəccüb onu bürüdü:



*Həftəsonu üçün Şamaxı rəsədxanasına ekskursiya planlaşdırmışıq. İstərdim ki, bu gəzintidə Elxan da iştirak etsin.*

*Məktuba icazə vərəqi əlavə etmişəm. Xahiş edirəm, vərəqi imzalayıb övladınızın gəzintiyə getməyinə razılıq verəsiniz.*

*Əvvəlcədən təşəkkür edirəm.*

*Sinif müəllimi Aynur Səmədli*

Məktubun arxasında icazə vərəqi vardı. Elxan yerindəcə donub qaldı. Üzündə təəccüb, kədər və peşmanlıq hissləri bir-birinə qarışmışdı.

## Nə anladın?

**E** **Mətnlə bağlı suallara cavab verin.**

1. Müəllim məktubu hansı məqsədlə yazmışdı?
2. Elxan nə üçün uşaqlarla gəzintiyə gedə bilmədi?

## Düşün və cavab ver

**2 A** **Mətnin sonunda Elxanın keçirdiyi hissləri hansı atalar sözü ilə ifadə etmək olar? Aşağıdakı atalar sözlərini izah etməklə seçiminizi əsaslandırın.**

A) Bu günün işini sabaha qoymazlar.
B) Sonrakı peşmançılıq fayda verməz.
C) Bilməmək eyib deyil, soruşmamaq eyibdir.

**B** **Hansı fikirlə razısınız? Seçiminizi əsaslandırın.**

A) Elxan məktubu anasına çatdırmalı idi.
B) Elxan məktubu anasına çatdırmamaqla düzgün hərəkət etmişdi.

**C** **Aşağıdakı davranışlarda Elxanın xarakterinin hansı cəhətləri açılır?**

1. Maddi durumları yaxşı olmadığına görə anasına ekskursiya barədə heç nə demədi.
2. Müəllimə dedi ki, məktubu anasına çatdırıb.

**Ç** **Mətndəki hansı hadisə sizə daha çox təsir etdi? Səbəbini izah edin.**

• Yadda saxla • **EPİZOD NƏDİR?**

**Epizod** – mətndə müəyyən bir hadisə ilə bağlı bitkin hissədir.
Məsələn, "Anaya məktub" mətnində aşağıdakı epizodlar var:
- Müəllimin anaya məktub göndərməsi;
- Avtobusun yola düşməsi;
- Elxanın məktubu oxuması və s.

## Yaradıcı iş

**D** **Mətnin məzmununu elə dəyişin ki, sonda Elxan da yoldaşları ilə gəzintiyə gedə bilsin. Bunun üçün yeni epizodlar düşünün.**

**E** **Mətni Elxanın dilindən nəql edin. Bu zaman Elxanın hiss-həyəcanını daha qabarıq ifadə etməyə çalışın.**

# Dil qaydaları

**3 A Verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.**

| | | |
|---|---|---|
| təccüb | yoxsa | təəccüb |
| xayiş | yoxsa | xahiş |
| kompot | yoxsa | kampot |
| zürafə | yoxsa | zurafə |
| zəyif | yoxsa | zəif |

**• Bunları bilməliyik • SÖZLƏRDƏ SAİTLƏRİN YAZILIŞI**

Bəzi sözlərdə saitlərin deyilişi və yazılışı fərqlənir. Bu cür sözlərin yazılışında bəzən səhvə yol verilir. Məsələn: *ailə* əvəzinə səhvən *ayilə* yazırıq. Sözlərin düzgün yazılışı orfoqrafiya lüğətində əks olunur.

**B Lüğətdən istifadə etməklə hər sütunda yanlış yazılmış sözü müəyyənləşdirin.**

| 1) | 2) | 3) | 4) |
|---|---|---|---|
| inşat | teatr | radio | müraciət |
| maaş | fəal | şərayit | ictimayi |
| təbii | sadət | əcaib | kainat |

**C Cədvəldəki nümunələrə əsasən verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.**

| Yanlış | Doğru | |
|---|---|---|
| dayirə | dairə | → müdafiyə, sayit, dayimi, şayir |
| kansert | konsert | → kanfet, kalbasa, kamandir |
| malicə | müalicə | → mayinə, masir |
| təccüb | təəccüb | → məttəl, təssüf |

**Ç Nöqtələrin yerinə uyğun hərfi əlavə edib sözləri köçürün.**

üm...d (ü, i) k...mpüter (o,a) n...munə (ü,u)
müd...r (ü, i) m...bahisə (ü,u) həy...can (ə,a)

**D Səhv yazılmış sözləri düzəldərək cümlələri köçürün.**

1. Nayilənin atası Qarabağ muharibəsində qəhramancasına vuruşub.
2. Sahat 17:00-da stadiyonda futbol yarışı keçiriləcək.
3. Avtamobil surətlə hərəkət edirdi.
4. Əziz məllimim, bayramınız mubarək!

•fəsil• 2 

# DOSTLUQ

•Söz boğçası•
- dəhliz
- fürsət
- müavin
- zümzümə etmək
- əl-ayağa düşmək

**1 A Dostunuzda hansı xüsusiyyətləri görmək istərdiniz? Sizcə, əsl dost necə olmalıdır?**

## CƏMİL + MAHİR
**1-ci hissə**

Bu gün Cəmil məktəbə tez gəlmişdi. Boş dəhlizləri gəzir, dərsin başlanmasını gözləyirdi. Yenicə rənglənmiş divarın yanından keçəndə elə bil kimsə Cəmilin qulağına pıçıldadı: “Mahirlə ayrılmaz dostlarsınız. Bunu yaz, qoy bütün məktəb bilsin!”

Cəmil də çantasından qara qələmini çıxarıb iri hərflərlə divarda yazdı:

Cəmil + Mahir

Bərabərlik işarəsini yazmaq istəyirdi ki, dəhlizin o biri başından Kazım müəllimin səsi eşidildi. O, direktor müavini idi. Cəmil yüyürüb məktəbin qapısından çölə çıxdı. Həyətdəki ağaclığa girib gizləndi.

Zəng çalındı. Cəmil heç nə olmamış kimi sinif yoldaşları ilə məktəbə daxil oldu. Kazım müəllim onun yazdığı divarın yanında dayanmışdı. Yamanca hirsli idi:

– Bunu kim yazıb?! Təmiri təzəcə qurtarmışıq. Gör nə kökə salıblar!

Kazım müəllim ikinci mərtəbəyə qalxdı. Cəmilsə fürsət gözlədi. Dəhliz boşalan kimi bayaqkı yazılarının yanına bir söz də əlavə etdi:

Cəmil + Mahir = dostluq




Kazım müəllim sinif jurnallarına baxdı. Məktəbdə Cəmil və Mahir adlı çox şagird oxuyurdu. Birinci sinifdə, ikidə, üçdə, səkkizdə, onda... Hansını çağırsın, kimdən soruşsun?

Cəmil musiqi dərsində idi. Sinif yoldaşları yeni mahnı öyrənirdilər. O isə ağızucu zümzümə edirdi. Əlində balaca mismar var idi. Onunla partanın üstünü cızırdı. Heç özü də bilmədi ki, nə vaxt divara yazdıqlarını burada cızdı. Əl-ayağa düşdü. Yazını pozmaq istədi. Üstünə mürəkkəb yaydı. Pozulmadı! Qara qələmlə rənglədi. Pozulmadı! Kazım müəllim gəlib durdu gözlərinin qabağında. Nə etsin? Yaxşı ki, bu vaxt zəng çalındı. Cəmil çantasını götürüb uşaqları itələyə-itələyə sinifdən bayıra atıldı. Fikirləşdi ki, bəlkə, sabaha kimi yazılar öz-özünə qaralıb görünməz olar...



## Nə anladın?

**B** **Mətnlə bağlı suallara cavab verin.**

1. Cəmil nə üçün Kazım müəllimi görəndə gizləndi?
2. Kazım müəllim niyə hirsləndi?
3. Cəmilin yazdığı “Cəmil + Mahir = dostluq” nə demək idi?

## Düşün və cavab ver

**C** **Cəmilin hansı hərəkətləri xoşunuza gəlmədi? Səbəbini izah edin.**

**Ç** **Nə üçün Cəmil partanın üstünü cızanda qorxuya düşdü?**

**D** **Bu mətn əsasında rollu oyun hazırlasanız, hansı obrazlar üçün aktyorlar lazım olar?**

*A) Cəmil, Mahir*
*B) Cəmil, Kazım müəllim*
*C) Cəmil, Kazım müəllim, Mahir*

## Yaradıcı iş

**E** **Divarları, partaların üstünü yazmaq yaxşı hərəkət deyil. Bu haqda plakat hazırlayın. Şüar yazmaqla belə hərəkətlərə qarşı çağırış edin.**

**2 A Sizcə, hadisələr necə davam edəcək? "Cəmil + Mahir" mətninin davamını oxuyun. Öz təxminlərinizlə müqayisə edin.**

**2-ci hissə** Ertəsi gün Cəmil Kazım müəllimi sinif otağının qarşısında görəndə ürəyi düşdü. Kazım müəllim ondan soruşdu:

– Adın nədir?

– Cəmil.

– Adını, soyadını bura yaz görüm.

Cəmil çəkinə-çəkinə adını, soyadını onun uzatdığı vərəqə yazdı.

– Nə yaxşı xəttin var, mənə tanış gəlir. Hansı partada oturursan?

Cəmil gözucu partasının üstünə baxdı. Yazılar aydınca oxunurdu. Tutuldu.

Qorxa-qorxa dedi:

– Burada.

– Çox gözəl. Bəs bunu kim yazıb?

Cəmil udqundu. Nə desin, boynuna alsın? Yox... Yox... Kazım müəllim hirslənəcək. Cəmil başını aşağı salıb yavaşca dilləndi:




**Söz boğçası**
- ürəyi düşmək
- boynuna almaq
- dayaq olmaq

– Mahir.

– Doğrudan? Səhv etmirsən ki? Bəlkə, başqası yazıb?

– Yox... yox... o!

– Mahir dostundur?

– Hə...

Sinif yavaş-yavaş uşaqlarla dolurdu. Hamısı da onların başına toplaşıb söhbətlərinə qulaq asırdı. Mahir də gəldi. Dostuna yaxınlaşanda yavaşca soruşdu:

– Nə olub, Cəmil?

Kazım müəllim onun kim olduğunu başa düşdü:

– Mahir sənsən? Bu yazılar sənin işindir?

– Xeyr.

**– Bəs kimin xəttidir?**

**Mahir dinmədi. Çiyinlərini çəkdi. Başını aşağı salıb dayandı.**

Kazım müəllim üzünü uşaqlara tutub dedi:

– Dostu sevərlər, onun haqqında ürəklə, açıq danışarlar. Daha oğrun-oğrun, gizlin-gizlin yox. Bir də, dostu qoruyarlar. Ona dayaq olarlar. Çətinə düşəndə günahı dostun üstünə atmazlar.

Cəmil bilirdi ki, bu sözlər ona deyilir. Öz-özünə düşünürdü: “Gör bir mən nə etdim!”

Dərs başlandı. Cəmilin qonşuluğunda oturan qız ona dördqat bükülmüş kağız uzatdı. Cəmil yavaş-yavaş onu açdı.

Vərəqdə yazılmışdı:




Cəmil Mahirin xəttini tanıdı...

*Fuad Tarverdiyev*

## Nə anladın?

**B** **Söz boğçasındakı sözləri aşağıdakı izahlarla uyğunlaşdırın.**

1) kömək olmaq, müdafiə etmək
2) bir işi görmüş olduğunu etiraf etmək
3) qorxmaq

## Düşün və cavab ver

**C** **Sizcə, Kazım müəllim nəyə görə məhz Cəmildən şübhələndi?**

**Ç** **Nə üçün Kazım müəllim Cəmilə adını, soyadını yazdırdı?**

**D** **Mətndə fərqləndirilmiş cümlələri bir daha oxuyun.**
**Sizcə, Mahir Cəmilin xəttini tanıdımı?**

**E** **Mahirin yerində siz olsaydınız, Kazım müəllimə nə cavab verərdiniz?**

## Yaradıcı iş

**Ə** **“Cəmil + Mahir” mətninin 2-ci hissəsini səhnələşdirin.**
**Rolları, onların hərəkətlərini və dialoqlarını müəyyənləşdirin.**

## Düşün və cavab ver

**3 A** **Oxuduğunuz mətndə hansı epizodlar daha çox yadınızda qaldı?**

**B** **Cəmil və Mahir obrazlarını müqayisə edin. Sizcə, bundan sonra onların münasibətləri necə davam edəcək?**

**C** **Aşağıdakı epizodlara əsasən Cəmil və Mahirin xarakterləri haqqında fikir yürüdün. Verilmiş sözlərdən istifadə edin.**

1. Cəmil məktəbin divarını yazır.
2. Cəmil partada yazdığını pozmağa çalışır.
3. Cəmil öz günahını dostunun boynuna atır.
4. Mahir Kazım müəllimin sualına cavab vermir.
5. Mahir Cəmillə dostluqdan imtina edir.

**İstifadə üçün sözlər:**
- *sədaqətli*
- *qorxaq*
- *məsuliyyətsiz*
- *qətiyyətli*
- *böhtançı*

**Ç** **“Cəmil + Mahir” mətnini yazmaqla müəllif oxuculara hansı fikri çatdırmaq istəyib? Seçiminizi əsaslandırın.**

1. Divarları və partaların üstünü yazmaq olmaz.
2. Adam öz günahını başqasının üstünə atmaz.

• Yadda saxla • **Epizod, Xarakter, İdeya**

Mətndəki epizodlarda obrazların xarakteri aydınlaşır. Onların davranışı mətnin ideyasını müəyyənləşdirməyə kömək edir.

**Epizod:** Cəmil öz günahını dostunun boynuna atır.
**Xarakter:** böhtançı
**İdeya:** Adam öz günahını başqasının üstünə atmaz.

**D** **Dinlədiyiniz “Unudulmuş dost” mətnində hansı epizodlarda baş qəhrəmanın xarakteri açılır? Onun xarakterinə əsasən mətnin ideyasını müəyyən edin.**

## Yaradıcı iş

**E** ***“... Nə desin, boynuna alsın?..”*** **cümləsindən başlayaraq mətni elə davam etdirin ki, baş qəhrəmanın xarakteri və əsərin ideyası dəyişsin.**

## Dil qaydaları

**4 A Qırmızı rənglə verilmiş sözlər səhv yazılmışdır.**
**Mətndən həmin hissəni tapıb sözlərin düzgün yazılışını müəyyən edin.**

*Cəmil yazını pozmaq istədi. Üstünə mürəkkəp yaydı. Pozulmadı! Qara qələmlə ranklədi. Pozulmadı! Nə etsin? Yaxşı ki bu vaxt zənk çalındı. Çantasını götürüp tez-tələsik məktəpdən çıxdı.*

• Bunları bilməliyik • SÖZLƏRDƏ SAMİTLƏRİN YAZILIŞI

Dilimizdə elə samitlər var ki, oxşar səslənir. Məsələn:

***b – p*** ***c – ç*** ***d – t*** ***g – k***

***B, c, d, g*** samitləri ilə bitən sözlərin yazılışında bəzən səhvə yol verilir. Məsələn:

| Doğru | Yanlış |
|---|---|
| kitab | kitap |
| bulud | bulut |
| pələng | pələnk |
| çəkic | çəkiç |

**B Lüğətdən istifadə etməklə nöqtələrin yerinə uyğun gələn samiti müəyyən edin.**

***1.*** *ahən...(g, k)*
***2.*** *rəqi...(p, b)*
***3.*** *kobu...(d, t)*
***4.*** *xər...(ç, c)*
***5.*** *çələn...(k, g)*
***6.*** *məktu...(b, p)*
***7.*** *söyü...(d, t)*
***8.*** *sevin...(ç, c)*

**C Sözləri oxuyun. Göy rənglə verilmiş samitlərin tələffüzünə diqqət edin. Fərqi izah edin.**

**1.** məktə**b**, məktə**b**də, məktə**b**ə
**2.** ağa**c**, ağa**c**dan, ağa**c**a
**3.** şagir**d**, şagir**d**dən, şagir**d**ə
**4.** zən**g**, zən**g**dən, zən**g**ə

**Faydalı məsləhət**

Belə sözlərin düzgün yazılışını müəyyən etmək üçün sözə saitlə başlanan hissəcik artırmaq olar. Məsələn: *məktəb**in**, şagird**ə**, bulud**u*** və s.

**Ç Aşağıdakı sözlərin bəzilərinin sonu “d” ilə bitir. Saitlə başlanan hissəcik artırmaqla həmin sözləri tapıb köçürün.**

| | | | | |
|---|---|---|---|---|
| *palıt* | *Ədalət* | *raket* | *qanat* | *Murat* |
| *planet* | *Azat* | *manat* | *konfet* | *kainat* |

•fəsil• 3

# MƏRHƏMƏT

**1 A Ehtiyacı olanlara yardım edəndə hansı hissləri keçirirsiniz? Öz həyatınızdan nümunələr gətirməklə bu haqda danışın.**

## İKİ ALMA

Axşamüstü gəzməyə çıxanda hərdənbir balaca oğlumu da özümlə aparıram. Bu dəfə də apardım. Gəzinti zamanı həmişə oğluma yeməli bir şey alıram. İndi də oğlum dükanların yanından keçəndə məndən çərəz və şirni istədi. Mən heç birini almadım, çünki pulum az idi.

Bir az dolandıq, sonra yolumuz dəniz kənarına düşdü. Amma oğlumu kefsiz görürdüm. Ondan bunun səbəbini soruşmadım. Səbəbi mənə məlum idi. <u>Dəniz kənarında meyvə dükanından hərəsi bir şahıya iki dənə yaxşı qırmızı alma aldım</u>. İkisini də oğluma verdim. Oğlum o qədər narazı imiş ki, mən almaları ona verəndən sonra da danışmaq istəmədi. Elə bil ağzına su almış-dı. Suallarıma çox həvəssiz cavab verirdi.



**•Söz boğçası•**

- şahı • abbası • tramvay • çərəz
- qanı qaralmaq • fikir götürmək
- ağzına su almaq

Evə getmək üçün tramvay dayanacağına gəldik. Oğlumla vaqonların birinə mindik. Vaqonda bizim ikimizdən başqa, oğlum boyda bir rus uşağı var idi. Əyin-başı cır-cındır içində, üz-gözü çirkli idi. Gəlib qabağımda dayandı və məndən bir qəpik pul istədi. <u>Alma alandan sonra cibimdə bir abbası qalmışdı</u>. Xırdam olmadığına görə uşağa pul verə bilmədim. Ona bir söz demədim ki, ötüb-getsin. Burada məni fikir götürdü, dilənçi uşağa pul verə bilmədiyimdən qanım qaralmışdı.

Uşaq dayanacaqda tramvaydan düşdü. Vaqonumuz yerindən tərpənəndə pəncərə şüşəsindən baxıb gördüm ki, həmin dilənçi uşaq tramvay dayanacağında durub bir qırmızı almanı ləzzətlə yeyir. Əvvəl heç nə anlamadım, sonra oğluma tərəf dönüb sualedici nəzərlərlə ona baxdım. Oğlum gülə-gülə yavaşca mənə dedi:

– Dədə, almanın birini verdim dilənçi uşağa.

Bu işdən oğlum və mən çox razı qaldıq. Mən yüngüllük və könül xoşluğu duydum.

*Cəlil Məmmədquluzadənin eyniadlı hekayəsi əsasında*

## Nə anladın?

**B** **Mətnlə bağlı suallara cavab verin.**

1. Ata ilə oğlu hara getmişdilər?
2. Ata nə üçün oğluna onun istədiklərini almamışdı?
3. Ata niyə dilənçiyə pul vermədi?

**C** **Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| 1. qanı qaralmaq | a) susmaq |
| 2. fikir götürmək | b) bikef olmaq |
| 3. ağzına su almaq | c) şadlanmaq |
| 4. kefi açılmaq | ç) xeyli düşünmək |

• Yadda saxla •

Nağıl və hekayələrdə rast gəlinən bəzi sözlər indi istifadə olunmur. Belə sözlərə **köhnəlmiş sözlər** deyilir. Məsələn, keçmişdə beşqəpiklik pul – **şahı**, iyirmiqəpiklik isə **abbası** adlanırdı.

## Düşün və cavab ver

**Ç** **Mətndə altından xətt çəkilmiş cümlələri oxuyun. Misal qurmaqla aşağıdakı suala cavab verin.**

**SUAL** **Ata evdən çıxanda cibində nə qədər pul var idi?**

## 2 A Qruplarla iş

**Aşağıdakı şəkillərdə mətndən dörd epizod əks olunmuşdur. Həmin epizodları öz sözlərinizlə nəql edin.**



**B** **Hər bir epizodda obrazların davranışına münasibət bildirin.**

1. Uşaq atasının imkanını nəzərə almadan mağazada gördüyünü istəyir.
2. Uşaq boş yerə atasından küsür.
3. Ata xırdası olmadığına görə kasıb uşağa pul vermir.
4. Uşaq əlindəki almaları kasıb bir həmyaşıdı ilə bölüşür.

• Yadda saxla • **ƏSAS VƏ KÖMƏKÇİ EPİZODLAR**

Mətndə əsas və köməkçi epizodlar olur. Mətnin ideyası **əsas epizodlarda** açılır.

**C** **Sizcə, “İki alma” hekayəsinin baş qəhrəmanı kimdir?**

**Ç** **“İki alma” hekayəsində hansı epizodu əsas sayırsınız? Bu epizodda obrazın davranışından çıxış edərək əsərin ideyasını müəyyənləşdirin.**

## Yaradıcı iş

**D** **Hekayənin baş qəhrəmanına məktub yazın. Onun hərəkətlərinə münasibət bildirin.**

# Dil qaydaları

**3 A Verilmiş sözlərin dəyişən və dəyişməyən hissələrini müəyyən edin.**

*meyvə • meyvənin • meyvədən • meyvəli • meyvələr • meyvəsiz*

• Bunları bilməliyik • **SÖZÜN TƏRKİBİ**

**uşaqlar**

| Kök | Şəkilçi (hissəcik) |
|---|---|
| • *Ayrılıqda işlənə bilir.* | • *Ayrılıqda işlənə bilmir.* |

**kök** — meyvə + li, qələm + lər, balıq + çı — **şəkilçilər**

**B Sözlərə şəkilçilər artırmaqla köçürün.**

pul: -lu, -suz, -lar, -dan

şokolad: -lar, -ım, -lı, -a

dəniz: -çi, -lər, -də, -ə

sat: -ıcı, -dı, -ır, -sın

**C Hər bir sözün kökünü müəyyən edin.**

*dadlı, dükançı, mağazadan, uşaqlar, bağban, evdən, meşəlik, aldı*

**Ç Hansı varlığı ifadə edən sözlərin tərkibində şəkilçi var?**

 → 

 → 

**D Nöqtələrin yerinə buraxılmış şəkilçiləri yazmaqla cümlələri köçürün.**

*Ata oğlunu gəzinti... apardı. Uşaq çərəz və şirni istə... . Ata... pul... az idi. Uşaq ata... küsdü. Ata oğlu... iki alma al... . Uşaq alma... birini tramvaydakı oğlan... verdi. Ata sevin... .*

# •fəsil• 4 MƏSULİYYƏT

**1 A Rollu oyuna necə hazırlaşırsınız? İndiyə kimi oynadığınız rolları xatırlayın. Ən çox bəyəndiyiniz rol hansı olub?**

## BALACA AKTYOR

**•Söz boğçası•**
- məsuliyyət
- səndələmək
- səhnə
- ssenari
- sükut

Bayraq Günü yaxınlaşırdı. Məktəbdə hamı tədbirə hazırlaşırdı. 3-cü sinif şagirdləri Qarabağ şəhidi Natiq Qasımova həsr olunmuş tamaşa göstərəcəkdilər. Həsən də bir ay idi ki, yoldaşları ilə məşq edirdi. Ssenaridəki dialoqları əzbər bilirdi.

Nəhayət, həmin gün yetişdi. Həsən yuxudan oyananda hiss etdi ki, boğazı ağrıyır, çətinliklə udqunur. Amma çalışdı ki, anası bunu bilməsin. Axı Həsən tamaşada baş qəhrəman rolunu canlandırmalı idi. Onsuz tamaşa baş tutmazdı, məktəbin tədbiri yarımçıq qalardı.

Məktəbdə dostu Saleh Həsəni görüb təəccüblə soruşdu:

– Həsən, sənə nə olub, üzün qızarıb. Xəstələnməmisən ki?

– Yox, Saleh, yəqin, həyəcandandır.

Saleh tamaşada düşmən ordusunun zabiti rolunu canlandıracaqdı. Ssenariyə görə Həsən də sonda Xocalı sakinlərini xilas etməli idi.

Tamaşaçılar zalda yerlərini tutdular. Pərdə hələlik bağlı idi. Həsən pərdənin arasından zala baxdı. Tədbirə dəvət olunmuş hərbçilər ön sırada oturmuşdular. Valideynləri də tamaşaçılar arasında idi.

Nəhayət, tamaşa başladı. Həsən səhnəyə çıxdı. Onun hərarəti yüksək idi. Yanaqları od tutub yanırdı, ürəyi sürətlə döyünürdü. Buna baxmayaraq Həsən rolunu məharətlə oynayırdı.

Tamaşa sona yaxınlaşırdı. Əlində bayraq düşmənə tərəf gedən Həsən birdən səndələdi. Bayraqdan tutaraq yavaşca yerə oturdu. Onun bu hərəkəti ssenariyə uyğun deyildi. Zal sükut içində idi. Tamaşaçılar nə baş verdiyini anlaya bilmirdilər.



Tamaşaya rəhbərlik edən Cabir müəllim dözməyib səhnəyə çıxdı. Həsənə yaxınlaşıb ona tərəf əyildi:

– Nə olub, Həsən?

Həsən güclə dilləndi:

– Xəstəyəm, müəllim... Başım fırlanır... Bağışlayın...

Tamaşaçılar həyəcanla gözləyirdilər. Nəhayət, Cabir müəllim üzünü tamaşaçılara tutub titrək səslə dedi:

– Hörmətli tamaşaçılar, baş rolu oynayan aktyorumuz Həsən xəstələnib. Amma bu vəziyyətdə də o öz rolunu məharətlə canlandırdı. Qəhrəmanımıza layiq bir şagird olduğunu sübuta yetirdi. Mən onunla fəxr edirəm və belə bir uşaq tərbiyə etdiyinə görə valideynlərinə təşəkkürümü bildirirəm.

Tamaşaçılar ayaq üstə bir neçə dəqiqə aktyorları alqışladılar.



*Yavuz Bahaduroğlunun*
*"Məsuliyyətli şagird" hekayəsi əsasında*

## Nə anladın?

**B** **Suallara cavab verin.**

1. Tədbir hansı günə həsr olunmuşdu?
2. Həsən səhnədə hansı rolu canlandırırdı?
3. Həsən nəyə görə xəstəliyini hamıdan gizlədirdi?
4. Cabir müəllim nə üçün səhnəyə çıxdı?

## Düşün və cavab ver

**C** **Sizcə, nə üçün Bayraq Günü münasibətilə hazırlanmış tamaşa Natiq Qasımova həsr olunmuşdu?**

## Yaradıcı iş

**Ç** **Həsənin dilindən mətni nəql edin. Bu zaman mətndə olmayan epizodlar da əlavə edə bilərsiniz.**

**2 A** **"Bayraqdar əsgər" mətnini dinləyin. "Balaca aktyor" mətnindən aldığınız hansı məlumatlar dinlədiyiniz mətndə əks olunub?**

**B** **Mətndə göy rənglə verilmiş "ssenari" sözünün işləndiyi cümlələri oxuyun. Bu sözün mənasını təxmin edin.**

• Yadda saxla • **SSENARİ NƏDİR?**

Hər bir tamaşa ssenari mətni əsasında hazırlanır. Ssenaridə hadisələrin məkanı, obrazların hərəkəti və onların nitqi verilir.

*Məkan*

**NATİQİN QALDIĞI EVİN QARŞISINDA**

*Hərəkət və emosiya*

*(Cəfər müəllim evə yaxınlaşır. Natiq pəncərədən onu görür)*

*Rollar*

*Rolların nitqi*

**Natiq (qəzəblə):** Sən kimsən? Yaxın gəlmə.
**Cəfər müəllim:** Mən Xocalıdanam, adım Cəfərdir. Sizə sözüm var.

## Yaradıcı iş

**C** **Dinlədiyiniz mətn əsasında yazılmış ssenarinin bir hissəsi ilə tanış olun. Həmin hissəni səhnələşdirin.**

**Natiqin qaldığı ev**

*(Natiq qapını açıb Cəfər müəllimi içəri buraxır. Otaq çox qaranlıqdır. İçəridə Natiqdən başqa heç kim yoxdur. Natiqin rəngi hisdən qapqaradır.)*

**Cəfər müəllim:** Onlar elə bilir ki, çoxsunuz. Neçə gündür burdasan?
**Natiq:** Yoldaşlarım şəhid oldu. Beş gündür ki, tək döyüşürəm.
**Cəfər müəllim** *(təaccüblə)*: Niyə çıxıb getmirsən? Axı təkbaşına nə qədər döyüşə bilərsən?!
**Natiq** *(əli ilə qapının üstündəki bayrağa işarə edir)*: Bu bayrağı necə qoyub gedim?! Sona qədər döyüşəcəyəm.
**Cəfər müəllim:** Biz 22 nəfərik. Sən təslim olmasan, bizi güllələyəcəklər.
**Natiq** *(qəzəblənmiş halda ayağa qalxır)*: Yox! Qoy məni güllələsinlər. Ancaq sizin ölümünüzə razı ola bilmərəm!
*(Natiq bayrağı götürüb sinəsinə sıxır. Sonra başının üzərinə qaldırıb düşmənə tərəf gedir.)*

## Dil qaydaları

**3 A** **Verilmiş sözləri kök və şəkilçiyə ayırın. Şəkilçilərin sözə qoşulduqdan sonra yaratdığı fərqi izah edin. Hansı şəkilçi yeni mənalı söz yaradıb?**

**tamaşaçı** **aktyorlar**

• Bunları bilməliyik • **SADƏ VƏ DÜZƏLTMƏ SÖZLƏR**

1. Bəzi şəkilçilər sözə qoşularaq yeni məna bildirən söz yaradır. Belə sözlərə düzəltmə söz deyilir. Məsələn,

**balıq** – suda yaşayan canlı, **balıqçı** – balıq tutan adam

sadə söz — düzəltmə söz

2. Elə şəkilçilər də var ki, yeni söz əmələ gətirmir. Bu şəkilçilər, adətən, sözlər arasında əlaqə yaradır. Məsələn,

**Həsənin bacısı saat ikidə məktəbdən gəlir.**

**B** **Cümlədə nöqtələrin yerinə uyğun gələn şəkilçi əlavə edib köçürün.**

*1. Orxanın otağı səliqəli idi. Görünür, təmiz... oğlandır.*
*2. Aygün həmişə bizi güldürür. O çox zarafat... qızdır.*
*3. Aydın yarışda yüksək bal qazandı. O çox çalış... uşaqdır.*

**C** **İzahları oxuyun. Uyğun sözləri müəyyən edin. Hansı söz sadə, hansı – düzəltmədir?**

*1. meyvə ağacları əkilən sahə – ...* *2. bağa qulluq edən şəxs – ...*

*1. buğdadan un üyüdülən yer – ...* *2. dəyirmanda işləyən şəxs – ...*

**Ç** **Buraxılmış şəkilçiləri əlavə etməklə cümlələri tamamlayın.**

*1. Vasif... ata... işdən qayıdır.* *3. Qələbə xəbər... hamı... sevindirdi.*
*2. Nigar dərs... hazırlaşır.* *4. Külək ağacın yarpaqları... yer... tökür.*

**D** **Sözlərə şəkilçilər artırın. Hansı şəkilçilər vasitəsilə düzəltmə söz yaranır?**

**məktub**: -dan, -un, -laş
**dost**: -lar, -luq, -um
**dara**: -yır, -dı, -q
**gül**: -lər, -lü, -dən

# NİKBİNLİK

## 1 A Qruplarla iş

**1. Mətnin hissələrini oxuyun və məzmuna uyğun başlıqla adlandırın.**
**2. Tanış olmayan sözləri qeyd edin və mənasını araşdırın.**
**3. Hər bir hissə üzrə suallar tərtib edin.**
**4. Mətni nəql edin.**

### YENİ DOSTLAR
**1-ci hissə**

Futbol matçının 80-ci dəqiqələri gedirdi. Yeniyetmə futbolçular bütün güclərini ortaya qoymuşdular. Zarafat deyildi, bu görüşün qalibi beynəlxalq idman yarışında iştirak edəcəkdi.

Yusif komandanın hücumçusu idi. O bu oyunda iki qol vurmuşdu. Rəqib komandanın müdafiəçiləri heç cür onun öhdəsindən gələ bilmirdilər. Müdafiəçilərdən biri onu bütün oyun boyu qarabaqara izləyirdi.

Budur, Yusif növbəti dəfə topla rəqibin cərimə meydançasına daxil oldu. İki müdafiəçini keçdi. Birdən... "Ay! Bu nə idi?! Necə də ağrıtdı!" – deyə Yusif inildədi. Yusifə çata bilməyən bir müdafiəçi arxadan ona badalaq vurub yıxmışdı.

Fit səsi eşidildi. Hakim müdafiəçiyə qırmızı kart göstərdi. On bir metrlik cərimə zərbəsi təyin olundu. Bu zaman hamının diqqəti yerdə uzanıb ayağını tutan Yusifə yönəldi. Deyəsən, zədəsi çox ciddi idi...

***

Yusifin sağ ayağı iki yerdən sınmışdı. Həkimlərin rəyi qəti idi: "Bir ay yataqda uzanmalıdır. Bir neçə ay idmandan söhbət gedə bilməz!"

Məşqçisi və komanda yoldaşları tez-tez ona baş çəkirdilər. Yusif onlara baxaraq düşünürdü: "Komandamız İtaliyaya beynəlxalq yarışa gedəcək. Bu uğurda mənim də payım var. Mən isə yataqda uzanmalıyam". Yusif getdikcə tənhalığa qapılır, bədbinləşirdi...



**2-ci hissə** Yusif artıq ikinci həftə idi ki, xəstəxanada idi. Mehriban, gülərüz tibb bacısı Nərgiz əlindən gələni edirdi ki, Yusifin kefi açılsın. Hərdən zarafatla deyirdi: “Bax, məşhur futbolçu olanda məni unutma ha”. Yusif nəzakət xatirinə gülümsəyir, amma kədərlə düşünürdü: “Mən?.. Futbolçu?.. Bu ayaqla?..”

Bir gün Nərgiz Yusifin dərmanını verəndə onun planşetini göstərdi:

– Yusif, deyəsən, sənə mesaj gəlib, oxumamısan.

Yusif planşeti götürüb mesajı oxudu.

Salam, Yusif. Mənim adım Mehmandır. İdmançıyam. Eşitdim, futbolda zədə almısan. Vaxtilə mənim də başıma gəlib. İdmançı üçün yataqda qalmaq ağırdır, bilirəm. Dedim, bir halını xəbər alım, görüm necəsən. Həvəsin olsa, sən də yaz. Hərdən söhbətləşək”.



Nərgiz gözaltı Yusifə baxırdı. Onun fikrə getdiyini görüb soruşdu:

– Kimdir, Yusif? Təzə xəbər var?

– Mehman adlı bir idmançıdır. Mən heç onu tanımıram.

Bundan sonra Yusif tez-tez Mehmanla yazışırdı. Məlum oldu ki, Mehman velosiped idmanı ilə məşğul olur. Vaxtilə velosipeddən yıxılıb möhkəm zədələnibmiş. O yazırdı:

**Söz boğçası**
- matç
- yeniyetmə
- qarabaqara
- cərimə
- hakim
- bədbinləşmək
- badalaq

“Düz bir il yataqda qaldım. Ancaq xəstəxanadan çıxandan sonra yenidən idmana qayıtdım. O vaxtdan bir çox beynəlxalq yarışların qalibi olmuşam”.

Son günlər Yusif hamı ilə həvəslə söhbət edir, gələcək planlarından danışırdı. Xəstəxanadan çıxan gün Mehmandan yeni mesaj aldı:

“Eşitdim, xəstəxanadan çıxırsan. İki gündən sonra yarışlara qatılıram. Səni də baxmağa dəvət edirəm...”

Yusif sevincini Nərgizlə bölüşdü. Nərgiz təbəssümlə dedi:

– Nə yaxşı! İstəyirsən, bir yerdə gedək?..

**3-cü hissə** Onlar stadiona yaxınlaşanda yarışın başlamasına on dəqiqə qalırdı. Stadionun qarşısında iri bir plakat asılmışdı:

**“PARAVELOSİPED İDMAN YARIŞLARINA XOŞ GƏLMİSİNİZ!”**

Yusif təəccüblə soruşdu:

– Paravelosiped nə deməkdir?

– İndi özün görəcəksən, – deyə Nərgiz cavab verdi.

Onlar finiş xəttinə yaxın bir yerdə əyləşdilər. İdmançılar start xəttində velosipeddə oturmuşdular. Amma bu, qəribə velosiped idi. Pedalları yox idi. İdmançılar onu ayaqla deyil, əllə hərəkətə gətirirdilər.

İdman tapançasından “start” atəşi açıldı və yarış başladı. Yusif Mehmanla elektron yazışmaları zamanı onun şəklini görmüşdü. İndi iştirakçılar arasında Mehmanı tanımağa çalışırdı. Velosipedçilərdən biri digərlərindən aralanıb qabağa çıxmışdı. Yusif diqqətlə baxıb onu tanıdı. Əli ilə Mehmanı göstərib Nərgizə dedi:

– Bax, Nərgiz, Mehman odur. Mənim dostum.



İdmançılar stadionda son dövrəni etdilər. Mehman finiş xəttini birinci keçdi. Alqış sədaları yüksəldi. Bu zaman Mehman velosipedini Yusifgilin qarşısına sürdü. Onlara tərəf baxıb qışqırdı:

– Salam, Nərgiz. Yanındakı Yusifdir?

Yusif sual dolu nəzərlərlə Nərgizə baxdı. Nərgiz gülə-gülə dedi:

– Yusif, Mehman mənim həyat yoldaşımdır...

*Rafiq İsmayılov*

## Düşün və cavab ver

**2 A Aşağıdakı epizod mətnin hansı hissəsinə aid ola bilər? Bu epizodda obrazların xarakteri necə açılır?**

Həkim Yusifə icazəsiz ayağa durmağı, gəzməyi qadağan etmişdi.

Bir dəfə Nərgiz palataya daxil olanda gördü ki, Yusif yataqdan qalxıb. Masadan tuta-tuta otaqda gəzir. "Cinayət" başında yaxalanan Yusif yazıq-yazıq Nərgizə baxdı. Gözləyirdi ki, indi tibb bacısı onu danlayacaq. Nərgiz isə ona göz vurub dedi:

– İşində ol. Keşikdə dururam. Həkim gəlsə, xəbər eləyəcəyəm.

**B Mətndən verilmiş cümlələri bir daha oxuyun. Suallara cavab verin.**

**1.** Nərgiz gözaltı Yusifə baxırdı.

**Sual:** Nərgiz niyə Yusifə gözaltı baxırdı?

**2.** Son günlər Yusif hamı ilə həvəslə söhbət edir, gələcək planlarından danışırdı.

**Sual:** Yusifin əhvalının yaxşılaşmasına səbəb nə idi?

**3.** Yusif sual dolu nəzərlərlə Nərgizə baxdı.

**Sual:** Yusif Nərgizdən nə soruşmaq istəyirdi?

**C Nümunə əsasında mətnin hissələrinin hekayə xəritəsini tərtib edin.**

| 1-ci hissə – Futbol yarışında zədə |
|---|
| ***Məkan*** – *Futbol meydançası* |
| ***Obrazlar*** – *Rəqib müdafiəçi və Yusif* |
| ***Əsas epizod*** – *Yusif ayağından zədə aldı.* |

**Ç Nərgizin davranışlarından nümunələr gətirməklə "mənəvi dəstək" ifadəsini izah edin. Sizcə, toplumda kimlərin mənəvi dəstəyə daha çox ehtiyacı var?**

**D Sizcə, Mehmanın böyük nailiyyətlər qazanmasına səbəb nədir?**

## Yaradıcı iş

**E Mətnin sonluğunu təxmin edin. Sizcə, bundan sonra qəhrəmanların taleyi necə olacaq?**

**3 A** İdmançı **sözündəki şəkilçini müəyyən edin. Həmin şəkilçini aşağıdakı sözlərə artırın.**

*qapı, futbol, müdafiə, gül*

• Bunları bilməliyik • **İKİ VƏ DÖRD CÜR YAZILAN ŞƏKİLÇİLƏR**

Şəkilçilərin çoxu iki və ya dörd cür yazılır. Bu, sözün son saitindən asılıdır.

| İki cür yazılan şəkilçilər: | Dörd cür yazılan şəkilçilər: |
|---|---|
| (tərkibində ***a, ə*** saitləri olur) | (tərkibində ***ı, i, u, ü*** saitləri olur) |
| *maşın**dan**, həkim**dən*** | yağ**lı**, qəm**li**, toz**lu**, güc**lü** |
| *bulud**lar**, gül**lər*** | bax**dı**, iç**di**, oxu**du**, gör**dü** |

Bu şəkilçilər ahəng qanununa uyğun olaraq dəyişir.

**B** **Uyğun şəkilçilər əlavə etməklə cümlələri tamamlayın.**

1. Mehman finişə birinci çat... .
2. Yusif bir ay xəstəxana... qal... .
3. O, Mehman... həyat yoldaşıdır.
4. Mehman velosiped... yıxılmışdı.

**C** **Qruplarla iş**

**Sözlərdəki şəkilçini ayırın. Həmin şəkilçinin işləndiyi əlavə sözlər yazın. Yazdığınız sözləri cümlədə işlədin.**

**1-ci qrup:** otaqda, güllü, işlə

**2-ci qrup:** evdən, balıqlar, kitabça

**3-cü qrup**: məktəbə, ballı, baxır

**4-cü qrup**: kitabı, duzlu, oxudu

• Diqqət et •

Şəkilçini sözdən ayrı yazarkən ondan əvvəl defis (-) işarəsi qoyulur: -dı, -lar
Şəkilçinin neçə cür yazılması onun üstündə rəqəmlə göstərilir:

-sız, -siz, -suz, -süz ⟶ **-sız**[4]    -da, -də ⟶ **-da**[2]

**Ç** **Nümunəyə əsasən sözlərin boş xanalara uyğunluğunu müəyyən edin.**

• Sözlər •

çiyələkli, bildi, kitabın, toxudu, südlü, quşun

| | *sözlər* | | | | *şəkilçi* |
|---|---|---|---|---|---|
| 1 | *dadsız* | *evsiz* | *susuz* | *gücsüz* | -sız[4] |
| 2 | oynadı | | | dözdü | -dı[4] |
| 3 | dadlı | | ulduzlu | | -lı[4] |
| 4 | | evin | | gülün | -ın[4] |

# Ümumiləşdirici təkrar

**A** **Hər sırada bir söz səhv yazılmışdır. Həmin sözü müəyyən edin və düzgün şəkildə yazın.**

1. qılınç, pələng, şagird
2. rəng, kabab, şabalıt
3. sevinç, dolab, çəkic
4. kənd, ləng, künç
5. zənk, qalib, palıd
6. cavab, velosipet, gülünc

**B** **Şeiri oxuyun. Suallara cavab verin.**

Dəmir, balıq – fikir ver
İki dənə kök sözə.
Yanaşdı burda -çı, -çi,
Balıq oldu balıqçı,
Dəmir oldu dəmirçi.

*İlyas Tapdıq*

**Suallar**

- **Şeirdə hansı şəkilçidən danışılır?**
- **Bu şəkilçi iki cür, yoxsa dörd cür yazılır?**
- **Yaratdığı sözlər nə bildirir?**
- **Nə üçün balıq sözünə “çı”, dəmir sözünə “çi” artırılır?**

**C** **İzahları oxuyun. Uyğun sözü müəyyən edin. Tapdığınız sözləri kök və şəkilçiyə ayırın. Şəkilçinin növünü müəyyən edin.**

1) hər şeydən qorxan
2) tərkibində su olan
3) bağa qulluq edən adam
4) tamaşa izləyən adam
5) çoxlu ot bitən yer
6) süpürmək üçün istifadə olunan əşya

**Ç** **Nöqtələrin yerinə uyğun şəkilçilər əlavə edib cümlələr yazın.**

**Biz** – alır..., üzür...
**Siz** – bilir..., oxuyur...

Mənim – ev..., gül... – gözəl...
Sənin – skuter..., top... – böyük...

**D** **Nümunəyə əsasən sözləri kök və şəkilçiyə ayırın.**

• Nümunə • ağıllı (necə?) = ağıl (nə?) + -lı$^4$

satıcı, meydança, yaxşılıq, döyüş, səhvsiz, naxışlı

# 2 DÜNYAMIZI TANIYAQ




**A** **Xəritədə müxtəlif xalqların nümayəndələri təsvir edilmişdir. Onların şəkillərinə baxın. Xəritədə aşağıdakı ölkələrin təxmini yerini müəyyən edin.**

*Yunanıstan, İspaniya, Türkiyə, Qazaxıstan, Rusiya, Azərbaycan, Çin, Almaniya, Ərəbistan, Həbəşistan, Yaponiya, Hindistan, Meksika, Amerika*




**B** **Hansı ölkəyə səyahət etmək istəyərdiniz? Seçiminizi izah edin.**

**C** **Siz hansı ölkədə yaşayırsınız? Mənsub olduğunuz xalq necə adlanır? Bu haqda bir neçə cümlə yazın.**

•fəsil• 1

# BİZ AZƏRBAYCANLIYIQ

1 A **Aşağıdakı atalar sözlərini izah edin.**

- El bir olsa, dağ oynadar yerindən.
- Güc birlikdədir.
- El gücü – sel gücü.
- Tək əldən səs çıxmaz.

**• Söz boğçası •**

- həmrəylik
- bölgə
- bürünc
- var-gəl etmək
- azarkeş

**HƏMRƏYLİK** Bakıda yeniyetmələr arasında cüdo üzrə beynəlxalq yarış keçirilirdi. Müxtəlif bölgələrdən gəlmiş idmançıları Atletlər kəndində yerləşdirmişdilər. Rəşid də bu yarışda iştirak edirdi. O, iki idmançı ilə bir otaqda qalırdı. Aslan on beş yaşlı idmançılar arasında qızıl, Seymur isə bürünc medal qazanmışdı. Rəşid isə on iki yaşlı idmançılar arasında keçirilən bütün döyüşlərdə qalib gəlmiş, finala qədər yüksəlmişdi. Sabah onun yapon cüdoçusu ilə həlledici görüşü olacaqdı.

Rəşid otaqda var-gəl edir, sabahkı döyüş haqqında düşünürdü. Otaq yoldaşları bayaqdan ona baxırdılar. Nəhayət, Aslan dilləndi:

– Rəşid, bəsdir! Sənə baxıram, başım fırlanır.

– Özümdən asılı deyil, çox həyəcanlanıram. Özün bilirsən, yaponlar ciddi rəqibdirlər. Bu döyüş növünü də elə onlar yaradıblar.

Daha sonra isə bir neçə dəfə “Bardeme, bardeme” deyə pıçıldadı.

Seymur soruşdu:

– Rəşid, öz-özünə nə deyirsən? Hansı dildə danışırsan?

Rəşid gülümsədi:

– “Qələbə!” deyirəm. “Bardeme” talışca qələbə deməkdir.



Seymur gülümsədi:

– Biz ləzgilər isə "kiudun" deyirik.

Aslan soruşdu:

– Deməli, sizin diliniz fərqlidir?

Rəşid cavab verdi:

– Dilimiz fərqli olsa da, hamımızın vətəni Azərbaycandır. Bu yarışlarda da vətənimizi təmsil edirik.  Necə deyərlər: "Hamı bir nəfər üçün, bir nəfər hamı üçün".

Nəhayət, final görüşü başladı. Rəşidin rəqibi, həqiqətən, çox güclü idi. Yapon idmançısı elə birinci raundda fənd işlədərək yüksək bal qazandı. Rəşid artıq özünə inamını itirirdi. Elə bu zaman kimsə onun adını səsləndirdi. Rəşid zala nəzər saldı. Bu, Aslanla Seymur idi. Onların ardınca bütün azarkeşlər qışqırmağa başladılar: "Rə-şid, Rə-şid..."

Rəşid bütün gücünü toplayaraq rəqibinə qarşı ağrıdıcı fənd işlətdi. Yerə yıxılmış yapon idmançısı əlini iki dəfə tatamiyə vuraraq qışqırdı: "Maita!" Hakim əlini yuxarı qaldırıb Rəşidi göstərdi. Bəli, idmançımız qalib gəlmişdi. O artıq çempion idi.

Bu zaman Aslanla Seymur tatamiyə tərəf qaçdılar. Aslan əlindəki üçrəngli bayrağı Rəşidə verdi. Onlar Azərbaycan bayrağını başları üzərinə qaldırdılar. Bir-birinin çiynindən yapışıb dövrə vurdular:

– Yaşasın Azərbaycan! Yaşasın dostluq, həmrəylik!



## Nə anladın?

**B** **Mətnin məzmununa əsasən aşağıdakı sözləri izah edin.**

| tatami | raund |

**C** **Sizcə, yapon idmançısı *"maita"* qışqırmaqla nə demək istəyirdi?**

**Ç** **Sualları cavablandırın.**

1. Rəşid hansı idman növü üzrə yarışlarda iştirak edirdi?
2. Rəşid niyə narahat idi?
3. Rəşidlə Seymur Aslanın qələbəsini necə qarşıladılar?

## Düşün və cavab ver

**D** **Mətnə əsasən doğru fikirləri müəyyən edin.**

1. Cüdo kollektiv idman növüdür.
2. Azərbaycanda bir çox azsaylı xalqlar yaşayır.
3. Cüdo idman növü Çində yaranıb.
4. Hər xalqın özünəməxsus dili var.

**2** **A** **“Hamı bir nəfər üçün, bir nəfər hamı üçün” şüarını necə başa düşürsünüz?**

**B** **Müəllimin oxuduğu “Həmrəy olsun xalqımız” mətnini dinləyin. Suallara cavab verməklə mətnin qısa məzmununu danışın.**

1. Azərbaycan əhalisinin sayı nə qədərdir?
2. Mətndə azərbaycanlıların yaşadığı hansı xarici ölkələrin adı çəkilir?
3. Azərbaycanlıların ən çox yaşadığı ölkə hansıdır?
4. Müstəqillik qazandıqdan sonra ölkəmizdə hansı dəyişikliklər baş verdi?
5. Dünya Azərbaycanlılarının Həmrəylik Günü nə vaxtdan qeyd olunur?
6. Bu bayram hansı məqsədlə keçirilir?

**C** **Dinlədiyiniz “Həmrəy olsun xalqımız” mətnində hansı məlumat yoxdur?**

a) Azərbaycanlıların ən çox yaşadığı ölkə İran İslam Respublikasıdır.
b) Dünya Azərbaycanlılarının Həmrəylik Günü ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunur.
c) Azərbaycan gəncləri ən çox Türkiyə universitetlərində təhsil alırlar.

**Ç** **Qruplarla iş**

**31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş plakat hazırlayın.**

# Dil qaydaları

**3 A** **Hansı şəkli "həmrəylik" sözü ilə adlandırmaq olar?**







**• Bunları bilməliyik •** **SÖZ, ANLAYIŞ**

Hər bir söz müəyyən anlayış ifadə edir. "Anlayış" dedikdə hər hansı ***varlıq, hərəkət, əlamət, say*** və s. nəzərdə tutulur.

| söz | | anlayış |
|---|---|---|
| *kitab* | → | varlıq (ad) |
| *oxumaq* | → | hərəkət |
| *hündür* | → | əlamət |
| *iki* | → | say |

**B** **Suallara əsasən hər şəkli bir sözlə adlandırın. Onların hansı anlayışa aid olduğunu deyin.**



nə?



neçə?



necə?



nə etmək?

**C** **Aşağıdakı sözləri cədvəl üzrə anlayışlara uyğun qruplaşdırın.**
*qaşıq, yazmaq, qayğıkeş, xeyli, çox, hündür, oxudu, gəmi, masa, üç*

| varlıq | hərəkət | əlamət | say |
|---|---|---|---|

**Ç** **Bir-birinə yaxın anlayışları bildirən sözləri qarşı-qarşıya yazın.**
*xeyli, gözəl, hasar, demək, çox, çəpər, söyləmək, qəşəng*

**• Diqqət et •**

Bəzən bir anlayışı müxtəlif sözlərlə ifadə etmək olur.

*gözlük* *eynək*



# DÜNYA XALQLARI

**1 A** **Şəkildəki məlumatlardan da istifadə edərək müxtəlif dillərdə bir-birinizi salamlayın.**







## SALAMLAŞMA ADƏTLƏRİ



*Hər birimiz gün ərzində dəfələrlə əl sıxıb salamlaşırıq. Bu salamlaşma formasının qədim tarixi var. Qədimdə kişilər özləri ilə silah gəzdirərdilər. Hər zaman döyüşə hazır olmaq üçün onlar silahı sağ əllərində tutardılar.*

*Amma xoş məqsədlə görüşəndə silahı sol ələ keçirər, sağ əllərini bir-birinə uzadardılar. Bununla da onlar sülh niyyəti ilə görüşdüklərini nümayiş etdirərdilər. “Salam” sözünün özü də sülh, əmin-amanlıq deməkdir.*

*Bir çox xalqların özünəməxsus salamlaşma adətləri də var.*

**Hindistan**

Hindlilər salamlaşarkən hörmət əlaməti olaraq ovuclarını bir-birinə sıxır və əllərini sinəyə tuturlar. Qədim tarixə malik Hindistanda bu cür salamlaşmanı “namaste” adlandırırlar.



**Türkiyə**

Türkiyədə uşaqlar və gənclər yaşlılarla salamlaşarkən xüsusi hörmət nümayiş etdirirlər. Onlar əyilib böyüyün əlini öpür və alınlarına qoyurlar.



**Yaponiya**

Yaponlar salamlaşarkən bir-birinə baş əyirlər. Onlar öz böyükləri və müəllimləri ilə görüşərkən başlarını daha çox əyirlər.

Cüdo və karate kimi yarışlarda da rəqiblər bir-birinə baş əyirlər. Bu da həmin idman növlərinin Yaponiyada yaranması ilə bağlıdır.



**Hərbi salamlaşma**

Yəqin ki, əsgər və zabitlərin salamlaşmasını görmüsünüz. Onlar əllərini gicgaha aparmaqla hərbi salam verirlər.



Bu salamlaşmanın da tarixi qədimdir. Yüzillər bundan əvvəl döyüşçü-cəngavərlər niqab taxırdılar. Dəbilqənin bir hissəsi olan niqab sifəti zərbədən qoruyurdu.

Cəngavərlər bir-biri ilə qarşılaşarkən niqabı alına qədər qaldırırdılar. Bununla da onlar qarşısındakı adamın dost, ya düşmən olduğunu təyin edirdilər. Zaman keçdikcə hərbi geyim dəyişdi, amma bu jest hərbi salamlaşma kimi qaldı.

**•Söz boğçası•**

- əmin-amanlıq
- cəngavər
- özünəməxsus
- niqab
- gicgah

Göründüyü kimi, salamlaşma adətləri müxtəlifdir. Amma onların məqsədi eynidir: görüşərkən qarşıdakı adama hörmət ifadə etmək.



## Nə anladın?

**B** **Sualları cavablandırın.**

1. Salamlaşarkən əl sıxmaq adəti nə ilə bağlıdır?
2. "Salam" sözünün mənası nədir?
3. Hərbi salamlaşmanın tarixi nə ilə bağlıdır?
4. Mətndə hansı xalqların salamlaşma adətləri ilə tanış oldunuz?

## Düşün və cavab ver

**C** **Mətnin sonuncu hissəsi əvvəlkilərdən nə ilə fərqlənir?**

**Ç** **Salamlaşarkən istifadə olunan ifadələri seçib yazın.**
*xoş gördük, mübarəkdir, üzr istəyirəm, salam, sabahınız xeyir, uğur olsun, axşamınız xeyir, çox sağ olun, hər vaxtınız xeyir*

## Yaradıcı iş



**2 A** **Dostunuzla birlikdə salamlaşma forması düşünün və sinif yoldaşlarınıza təqdim edin.**

**B** **"Salamlaşma adətləri" informativ mətndir, yoxsa bədii? Fikrinizi əsaslandırın.**

• Yadda saxla • **İNFORMATİV MƏTNİN TƏRKİB HİSSƏLƏRİ**

İnformativ mətnlər də bədii mətnlər kimi **giriş, əsas** və **sonluq** hissələrindən ibarət olur.

**C** **Sxemə uyğun olaraq "Salamlaşma adətləri" mətninin tərkib hissələrini müəyyən edin.**

**İNFORMATİV MƏTN**

| Giriş | Əsas hissə | Sonluq |
| --- | --- | --- |
| Mövzu haqqında ümumi məlumat verilir. | Mövzuya uyğun məlumatlar, faktlar verilir. | Məlumatlar ümumiləşdirilir və nəticə çıxarılır. |

**Ç** **"Salamlaşma adətləri" mətninin girişindən əsas hissəyə keçid təşkil edən cümləni oxuyun.**

# Dil qaydaları

**3 A Aşağıdakı sözləri cədvələ uyğun qruplaşdırın.**

*Bakı, cüdo, Qazax, Rəşid, yarış, idmançı, talış, final, Aslan, raund, Quba, otaq, döyüş, Seymur, bayraq, qələbə*

| Kim? | Nə? | Hara? |
|---|---|---|
| | | |

• Bunları bilməliyik • **İSİM – AD BİLDİRƏN SÖZ**

• Ad bildirən sözlərə isim deyilir. İsim canlı və cansız varlıqların, eləcə də yerin, məkanın adını bildirir, ***kim?, nə?, hara?*** suallarına cavab verir.

*Məsələn:*
*idmançı, baba* – ***kim?***
*pişik, medal* – ***nə?***
*məktəb, Gəncə* – ***hara?***

**B Aşağıdakı sxemi şərh edin.**

İSİM → cansız varlıqlar → masa, ütü, dəmir → **Nə?**
İSİM → canlı varlıqlar → insan → həkim, əmi, Kamil → **Kim?**
İSİM → canlı varlıqlar → heyvan və s. → şir, delfin, bülbül → **Nə?**
İSİM → yer, məkan → dağ, kənd, küçə → **Hara?**

**C Verilmiş sözlərə uyğun şəkilçilər artırmaqla kim? sualına cavab verən sözlər düzəldin.**

*arı, pambıq, üzüm, traktor, yazı, neft, qoruq, bağ, vətən, sənət*

• Diqqət et •

• Bir çox varlıqları gözlə görmək, şəklini çəkmək mümkündür. Məsələn: *bayraq, ağac.* Belə varlıqları bildirən isimlərə **konkret isimlər** deyilir.

• Lakin elə varlıqlar da var ki, gözlə görünmür, yalnız təsəvvür olunur. Məsələn: *fikir, sevinc.* Belə varlıqları bildirən isimlər **mücərrəd isimlər** adlanır.

**Ç Mücərrəd isimləri seçib yazın. Qarşısında sualını qeyd edin. Bu isimlər hansı suala cavab verir?**

*dəniz, həyəcan, kitabxana, şair, Türkiyə, yaxşılıq, mühəndis, ağıl, qorxu, hasar, qələbə*

# TARİXİ ABİDƏLƏR

**1 A** **Şəkildə Şirvanşahlar sarayını görürsünüz. Siz bu abidə haqqında nə bilmək istəyərdiniz? Bu haqda məlumat almaq üçün suallar tərtib edin.**



*Şirvanşahlar sarayı*

## PİZA QÜLLƏSİ

Dünyada elə abidələr var ki, gözəlliyinə, qədimliyinə görə hamının marağına səbəb olur. Belə abidələrdən biri də İtaliyanın Piza şəhərində inşa edilmiş qüllədir.

Piza qülləsini fərqləndirən əsas xüsusiyyət onun əyri durmasıdır. Kənardan bu tikiliyə baxanda adama elə gəlir ki, o, indi aşacaq. Bu xüsusiyyətinə görə ona “Yıxılan qüllə” də deyirlər. Bununla belə, Piza qülləsi artıq neçə əsrdir ki, əyri dayanıb, amma yıxılmır.

Qüllənin əyilmə səbəbi dəqiq bilinmir. Sözsüz ki, o inşa ediləndə başqa binalar kimi düz idi. Yüzillər ərzində bina 5 metr yana əyilmişdir. Bəzi fikirlərə görə, əyilməyə səbəb binanın bünövrəsində torpağın yumşaq olması və zaman keçdikcə bir tərəfinin çökməsidir.

Abidənin inşası 1174-cü ildə başlanıb və 1350-ci ildə başa çatıb. Qüllənin memarının kim olduğu da dəqiq məlum deyil. Lakin bəzi mənbələrdə Bonnano Pizanonun adı qeyd olunur.

Qüllə 8 mərtəbədən ibarətdir. Hündürlüyü təxminən 56 metrdir. Divarının qalınlığı aşağı mərtəbələrdə 4 metr, yuxarı mərtəbələrdə isə 2 metrdir. Qüllənin 294 pilləsi vardır.



*Piza qülləsi*

Mütəxəssislər qüllənin yana doğru əyilməsini daim nəzarətdə saxlayırlar: onun bünövrəsi möhkəmləndirilir, dağılmış sütunları bərpa olunur. Bunun nəticəsində son 20 ildə qüllə 4 sm düzəlib.

Aşma təhlükəsinin olmasına baxmayaraq, hər il milyonlarla turist Piza qülləsini seyr etmək üçün İtaliyaya gəlir.

**Söz boğçası**
- inşa etmək
- mənbə
- memar
- bünövrə
- mütəxəssis
- bərpa etmək

## Nə anladın?

**B** **"Söz boğçası"ndakı sözləri aşağıdakı izahlarla uyğunlaşdırın.**

– Binanın əsası, təməli, özülü
– Əvvəlki vəziyyətinə gətirmək
– Qurmaq, yaratmaq, tikmək
– Bir məlumatın alındığı yer, sənəd
– Tikintinin layihəsini hazırlayan şəxs

**C** **Mətndə hansı suallara cavab yoxdur?**

1. Piza qülləsi harada yerləşir?
2. Bu qüllənin fərqli cəhəti nədir?
3. Piza qülləsi hansı məqsədlə tikilib?
4. Qüllənin hündürlüyü nə qədərdir?
5. Qüllə hansı materiallardan tikilib?

## Düşün və cavab ver

**Ç** **Riyazi biliklərinizdən istifadə etməklə suallara cavab verin.**

1. Piza qülləsi hansı həndəsi fiqura bənzəyir?
2. Qüllənin hər mərtəbəsinin hündürlüyü neçə metrdir?

**D** **Cümlələrin fakt, yoxsa münasibət bildirdiyini müəyyən edin.**

- Piza qülləsi İtaliyada yerləşir.
- Məncə, Piza qülləsi qeyri-adi tikilidir.
- Mən də Piza qülləsini görmək istəyərdim.
- Piza qülləsinə inşa edildiyi şəhərin adı verilib.

**E** **Araşdırma** **Qız qalası haqqında araşdırma aparın.**

## Yaradıcı iş

**2 A Təlimatdan istifadə etməklə Piza qülləsi haqqında məlumat vərəqi hazırlayın.**




**TƏLİMAT**

1. Mövzunu (başlığı) qeyd edin.
2. Abidənin şəklini çəkin və ya tapdığınız şəkli vərəqə yapışdırın.
3. Nümunəyə uyğun cədvəl tərtib edin.

| | |
|---|---|
| Yerləşdiyi ölkə | *İtaliya* |
| Yerləşdiyi şəhər | |
| Tikilmə tarixi | |
| Hündürlüyü | |
| Memarı | |
| Əlavə məlumatlar | |

4. Məlumatları cədvəlin uyğun xanalarında yazın.
5. Məlumat vərəqini zövqünüzə uyğun tərtib edin.

## Təqdimat

**B Eyfel qülləsi haqqında verilmiş məlumat vərəqinə baxın. Suallara cavab verin.**

1. Fransanın bayrağında hansı rənglər var?
2. Eyfel qülləsi hansı şəhərdə yerləşir?
3. Məlumat vərəqindəki simvolik işarələr nəyi ifadə edir?



**Eyfel qülləsi**




1887-1889-cu illər

Qustavo Eyfel

300 m. 65 sm

Əlavə məlumatlar

1. Sena çayının sahilində yerləşir.
2. İldə 6-7 milyon turist Eyfelə baxmağa gəlir.
3. 1930-cu ilə kimi dünyada ən hündür tikili hesab olunub.



**C Məlumat vərəqindən istifadə etməklə təqdimat hazırlayın.**

**Ç Qız qalası haqqında apardığınız araşdırma əsasında məlumat vərəqi hazırlayın.**

## Dil qaydaları

**3 A** **Aşağıdakı sözləri cədvələ uyğun qruplaşdırın.**

*Hindistan, Elgün, Məstan, Bakı, Alabaş, Ayla, Azərbaycan, Toplan, Əli*

| Şəxs adları | Yer adları | Heyvanlara verilən adlar |
|---|---|---|
| | | |

• Bunları bilməliyik • **ÜMUMİ VƏ XÜSUSİ İSİMLƏR**

• **“Ümumi”** – *hamıya aid olan* deməkdir. Məsələn, “şagird” sözünü həm Fəridəyə, həm Leylaya, həm də Toğrula aid etmək olar.







– “Şagird”, “abidə” sözləri ümumi isimlərdir.
– Fəridə, Toğrul, Ataşgah və s. adlar isə xüsusi isimlərdir. Çünki bu sözlər hamıya deyil, ayrı-ayrı varlıqlara, fərdlərə aiddir.

**B** **Aşağıdakı ümumi isimlərə aid olan xüsusi isimlər deyin.**

*şəhər, müəllim, soyad, ölkə, kənd, pişik, it, çay, oğlan, göl, qız*

• Nümunə •
çay – Kür

• Diqqət et •

• Xüsusi isimlərin ilk hərfi həmişə böyük yazılır.
Məsələn: *Nizami, Gəncə, Naxçıvan, Türkiyə*

**C** **Hansı cümlədə “aslan” sözü böyük hərflə yazılmalıdır?**

*1. Seymurla aslan Rəşidi dəstəkləyir, onu alqışlayırdılar.*
*2. Qoca aslan başını pəncələrinin üstünə qoyub yuxuya getdi.*

**Ç** **Hansı sözlər yerindən asılı olaraq həm böyük, həm də kiçik hərflə yazılır?**

*Ceyran, Azərbaycan, Yasəmən, Arzu, Kür, Qafqaz, Zəfər*

•fəsil• 4

# MİLLİ BAYRAMLAR

1 A **Araşdırma apararkən kimdən kömək alırsınız?**
**Bu zaman əvvəlcədən suallarınızı hazırlayırsınızmı?**

*"Gənc müxbirlər" dərnəyinin üzvləri hər ay divar qəzeti hazırlayırdılar. Qəzetin növbəti sayı "Dünya xalqlarının adət-ənənələri" adlanırdı. Gənc müxbirlər xarici ölkələrin nümayəndələrindən bu mövzuda müsahibə aldılar.*

## Hindli qonaq Sitaram Mello ilə müsahibə

– Salam, cənab Mello.

– Xoş gördük.

– Cənab Mello, illərdir ki, Azərbaycanda yaşayırsınız. Azərbaycan xalqının hansı bayramlarını tanıyırsınız?

– Azərbaycanda keçirilən Novruz bayramı, Qurban bayramı mənim çox xoşuma gəlir. Bu bayramlarda ailəyə bağlılıq, böyüklərə hörmət, imkansızlara əl tutmaq kimi gözəl xüsusiyyətlər özünü göstərir.

– Cənab Mello, bəs hind xalqının hansı milli bayramları var?

– Hindistanda çox qədim vaxtlardan Holi bayramı qeyd edilir. Təbiətin, torpağın oyanmasını bayram edən insanlar bir-birini müxtəlif rənglərə boyayırlar.

– Maraqlıdır, bəs rənglər paltara, dəriyə ləkə salmır?

– Xeyr, çünki həmin rənglərin yağ qarışığı olmur. Adi su ilə yuyan kimi təmizlənir.

– Bəs bu festivalda istifadə olunan rənglərin bir mənası varmı?

– Bəli, Holi şənliklərində istifadə olunan rənglərin hər birinin öz mənası var. Məsələn, yaşıl rəng canlanmanı, mavi rəng sakitliyi, sarı rəng isə Allaha bağlılığı ifadə edir.

– Cənab Mello, bizə vaxt ayırıb müsahibə verdiyiniz üçün sizə təşəkkür edirəm.

**•Söz boğçası•**

- müxbir
- cənab
- festival
- müsahib
- süvari
- təbil





## Çindən gəlmiş rəqqasə Luli Kianqla müsahibə

– Xanım Kianq, Azərbaycana xoş gəlmişsiniz.

– Xoş gördük. Bütün Azərbaycan xalqını salamlayıram.

– Xanım Kianq, bilirik ki, siz tanınmış rəqqasəsiniz. Bizə qədim Çin rəqsləri haqqında məlumat verə bilərsinizmi?



– "Şirlər rəqsi" ən qədim rəqslərdən biridir. Əfsanəyə görə, düşmən döyüşçüləri fillərin üzərində Çinə hücum edirlər. Bu döyüşlərdə çinlilər böyük itki verirlər. Onda Çin sərkərdəsi deyir ki, fillərin qarşısına şirləri çıxarmaq lazımdır. Çünki şir yeganə heyvandır ki, fil ondan qorxur. Amma Çində şirlər yaşamırdı. Buna görə də hökmdarın əmri ilə parçadan çoxlu "şir dərisi" tikirlər. Bu "şir"lərin parlaq rənglənmiş sifəti və yekə dişləri var idi. Hər dəriyə iki döyüşçü girib onu hərəkətə gətirirdi.

Həlledici döyüş günü yetişir. Təbillərin gurultusu altında "şirlər" nərildəyərək düşmən üzərinə atılırlar. Qorxmuş fillər süvariləri bellərindən ataraq qaçışırlar. Çin ordusu tam qələbə çalır. Bu hadisədən sonra təntənəli günlərdə "şirlər rəqsi" ifa edilir.

– Maraqlı müsahibə üçün sizə təşəkkür edirik.



## Nə anladın?

**B** **Sualları cavablandırın.**

1. Müxbirlər hansı məqsədlə xarici qonaqlardan müsahibə alırdılar?
2. Sitaram Mello hindlilərin hansı bayramı haqqında məlumat verdi?
3. Holi bayramında istifadə olunan rənglərin mənası nədir?
4. Luli Kianq hansı rəqs haqqında məlumat verib?
5. "Şirlər rəqsi" hansı hadisə ilə bağlıdır?

## Düşün və cavab ver

**C** **Müxbir olsaydınız, müsahiblərə daha hansı suallar verərdiniz?**

**Ç** **Araşdırma**

**Azərbaycan rəqslərindən biri haqqında araşdırma aparın.**

**2 A** **Tailandda yeni il bayramı Sonqkran adlanır. Bu bayrama Su bayramı da deyirlər. Həmin gün insanlar küçəyə çıxıb bir-birinin üstünə su atırlar.**

**Təsəvvür edin ki, bir tailandlı ilə görüşmüsünüz. Sonqkran bayramı haqqında daha geniş məlumat almaq üçün ona hansı sualları verərdiniz?**



**Faydalı məsləhət** — **MÜSAHİBƏYƏ NECƏ HAZIRLAŞMALI?**

Mövzu üzrə məlumat əldə etməyin yollarından biri də müsahibə almaqdır. Müsahibəyə hazırlaşarkən aşağıdakı tövsiyələrə əməl edin:

1. Mövzu haqqında bildiklərinizi qeyd edin.
2. Mövzu haqqında öyrənmək istədiklərinizi qeyd edin.
3. Müsahibinizi müəyyənləşdirin.
4. Verəcəyiniz sualları sıra ilə yazın.

## Təqdimat

**B** **Oxuduğunuz tövsiyələrə əsasən Azərbaycan rəqsləri haqqında müsahibə hazırlayın.**

# Dil qaydaları

**3 A** **Maşın şəkillərinə baxın.**
**Birinci maşını ikincidən fərqləndirmək üçün onu necə adlandırardınız?**
**Bəs üçüncü maşını o birilərindən necə fərqləndirərsiniz?**





• Bunları bilməliyik • **SÖZ VƏ SÖZ BİRLƏŞMƏSİ**

• Hər hansı anlayışı dəqiq ifadə etmək üçün iki və daha artıq sözdən istifadə olunur. Buna söz birləşməsi deyilir.

| Söz | Söz birləşməsi | |
|---|---|---|
| ***kitab*** | ***maraqlı kitab*** | ***Orxanın maraqlı kitabı*** |

Sözlər nə qədər çoxdursa, məna bir o qədər konkret olur.

**B** **Verilmiş sözlərdən söz birləşməsi yaradın.**
*1. divar, qəzet; 2. rəng, festival; 3. ölkə, nümayəndə; 4. bayram, şənlik.*

**C** **Nöqtələrin yerinə uyğun sözlər artırıb söz birləşmələri yaradın.**
*... həyat, ... müxbir, ... şəhər, ... bayraq, ... meşə, ... musiqi*

**Ç** **Hər bir şəklə aid 2 və ya 3 sözdən ibarət söz birləşmələri yaradıb yazın.**





**D** **Söz birləşmələrini seçib yazın.**
*1. Ölkəmizdə qədim abidələr çoxdur.*
*2. Gənc müxbirlər Şəkiyə getdilər.*
*3. Şagirdlər məlumat vərəqi hazırladılar.*

• Diqqət et •

Söz birləşməsindəki sözlərə çox zaman əlaqə yaradan şəkilçilər əlavə olunur.

**kompüter** **monitor**

**kompüterin monitoru**

•fəsil• 5

# SƏYAHƏT

**1 A** **Heç səyahət etmisinizmi? Bu zaman hansı nəqliyyat vasitələrindən istifadə etmisiniz?**

## SƏKSƏN GÜN DÜNYA ƏTRAFINDA
**1-ci hissə**

Mister Foq çox dəqiq adam idi: hər gün səhər saat səkkizdə oyanar, doqquza qalmış səhər yeməyini yeyərdi. Saat on ikinin yarısında üzvü olduğu "Dostluq" klubuna gedərdi. Klubda hamı onu soyuqqanlı, bir qədər qaraqabaq adam kimi tanıyırdı. Amma mister Foqa hörmətlə yanaşırdılar, çünki o çox oxumuş və dünyagörmüş adam idi.

Saat on iki idi və Foq artıq klubda idi. Həmişəki kimi pəncərənin qarşısındakı kresloda əyləşmişdi. Bugünkü qəzetlərə nəzər salırdı. Klubun digər üzvləri arasında qızğın mübahisə gedirdi: Yer ətrafına neçə günə səyahət etmək olar? Biri 150 gün, başqa birisi 6 ay deyirdi. Nəhayət, centlmenlərdən biri Foqa üz tutdu:

**•Söz boğçası•**
- centlmen
- soyuqqanlı
- klub
- mister

– Mister Foq, siz bu barədə nə düşünürsünüz?

Foq həmişəki kimi təmkinlə, lakin qətiyyətli səslə dilləndi:

– <u>Qatar, hava balonu meydana çıxdıqdan sonra dünya xeyli kiçilib</u>. Düşünürəm ki, bu gün Yer ətrafına 80 günə dolanmaq olar.

– 80 günə? Siz zarafat edirsiniz, mister Foq.

Mister Foq əlindəki qəzeti kənara qoyub ayağa qalxdı:

– Bəli, centlmenlər, 80 gün. Mərc gəlirəm ki, dünyanı səyahət etmək üçün 80 gün yetər. Bu gün, oktyabrın 2-də mən Yer ətrafına səyahətə çıxıram. Dekabrın 21-də burada, bu klubda sizinlə görüşərik.

Bunu deyib mister Foq iti addımlarla klubdan çıxdı və evinə doğru yönəldi. Evə çatan kimi xidmətçisini səslədi:

– Paspartu, cəld çamadanı hazırla, yola düşürük. Dünya ətrafında səksən günlük səyahətə çıxırıq.



Paspartu təəccüblənsə də, ağasının əmrini yerinə yetirməyə başladı. Mister Foq isə bir vərəq götürüb səyahət planını cızmağa başladı.




## Nə anladın?

**B** **Mətndən mister Foqun xarakterini göstərən hissələri tapın və aşağıdakı cümlələri əsaslandırın.**

1. Mister Foq hər şeyi dəqiq planlaşdırmağı sevirdi.
2. O, təmkinli və soyuqqanlı idi.
3. Qətiyyətli və özünə inamlı idi.

**C** **Mister Foq səyahət zamanı hansı nəqliyyat vasitələrindən istifadə etməyi planlaşdırırdı?**

## Düşün və cavab ver

**Ç** **Mətndə altından xətt çəkilmiş cümləni bir daha oxuyun. Sizcə, bu cümlə ilə mister Foq nə demək istəyirdi?**

**D** **Mətnə və verilmiş cədvələ əsasən suala cavab verin: Mister Foq neçənci ildə səyahət etmişdir?**

**A) 1801-ci il B) 1872-ci il C) 1898-ci il**

| *İxtiralar* | *tarix* |
|---|---|
| *Hava balonu* | *1783-cü il* |
| *Qatar* | *1804-cü il* |
| *Avtomobil* | *1876-cı il* |
| *Təyyarə* | *1903-cü il* |

## 2A Səyahət zamanı getdiyiniz yerlərdə daha çox nəyə diqqət edirsiniz?

**2-ci hissə**

Mister Foq elə həmin axşam Paspartu ilə birlikdə Londondan dünya səyahətinə çıxdı. 7 gün sonra onlar Misirə çatdılar.

Paspartu hələ də bu səyahətin səbəbini anlamırdı. O, çaşqın nəzərlərlə ağasına baxıb dedi:

– Cənab, sanki yuxudayam. Bir həftə əvvəl Fransada idik, indi isə Misirdəyik.

– Bəli, Paspartu, macəralara hazır ol. Dünən Avropadaydın, bu gün Afrikada. İndi isə yolumuz Bombey şəhərinədir – Hindistana. Yəni bir neçə gündən sonra Asiyada olacağıq.

Doğrudan da, bir müddət sonra onlar artıq Bombeydə idilər. Hər şey plan üzrə gedirdi. Foq səyahətdən məmnun idi.

Bombey zəngin kitabxanaları, səs-küylü bazarları ilə məşhur idi. Paspartu mister Foqdan icazə alıb şəhəri gəzməyə çıxdı. Gəzə-gəzə gəlib möhtəşəm bir paqodanın qarşısına çıxdı. O bilirdi ki, paqoda müqəddəs yerdir və yerli camaat bu məbəddə ibadət edir. Paspartu binaya daxil olmaq istədi. Elə ayağını içəriyə qoymuşdu ki, bir neçə adam onu tutub məbəddən çıxardı. Neçə cüt qəzəbli göz Paspartuya dikildi. Ziyarətçilər əl-qol ilə Paspartuya nə isə deyirdilər.

Bir saat sonra Paspartu mister Foqun qarşısında dayanıb başını aşağı salmışdı. Mister Foq cərimə ödəyərək Paspartunu polis şöbəsindən çıxarmışdı. O, üzünü Paspartuya tutub sakit səslə dedi:

– Paspartu, paqodaya ayaqqabı ilə daxil olmaq qadağandır. Yadında saxla, hər bir ölkədə yerli xalqın adət-ənənələrinə hörmətlə yanaşmaq lazımdır.

Ertəsi gün yola çıxan səyahətçilər uzun macəralardan sonra Yaponiyaya çatdılar. Buradan gəmi onları Sakit okeanla Amerikaya aparacaqdı.

**Söz boğçası**

- paqoda
- müqəddəs
- ziyarətçi
- məmnun
- məbəd
- ibadət



Mister Foq Paspartuya dedi:

– Paspartu, qarşıda bizi Nyu-York gözləyir. Oradan isə vətənə – Londona! Sevinmək lazımdır, Paspartu, biz qalib gəlirik. Mən mərci udmaq üzrəyəm. Biz çox şey qazandıq.

– Cənab, bu səyahət üçün az qala var-dövlətinizin yarısını xərclədiniz. Nə qədər təhlükələrlə üzləşdiniz. Buna qazanmaqmı deyirsiniz?



– Paspartu, albəttə, qazanmışıq. Neçə ölkə, şəhər gördük. Neçə xalqın mədəniyyəti, adət-ənənələri ilə tanış olduq. Londonda oturmaqla bu dünyagörüşünü qazana bilməzdik. Bu qazanc heç bir pulla ölçülə bilməz.

*Jül Vern*

## Nə anladın?

**B** **Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| 1. Fransa | A. Asiya |
| 2. Misir | B. Amerika |
| 3. Bombey | C. Afrika |
| 4. Nyu-York | Ç. Avropa |

## Yaradıcı iş

**C** **Siz hansı yerlərə səyahət etmək istəyirsiniz? Nümunəyə əsasən səyahət planı hazırlayın.**

• Nümunə •

| Yerin adı | Bu yeri seçmə səbəbi | İstifadə edəcəyiniz nəqliyyat vasitəsi |
|---|---|---|
| *1. Fransa* | *Eyfel qülləsini görmək* | *təyyarə* |
| *2. ...* | *...* | *...* |

## Dil qaydaları

**3 A Bu bölmədə rast gəldiyiniz adları seçib cədvələ uyğun qruplaşdırın:**

| Şəhər adları | Ölkə adları | Xalq adları |
|---|---|---|
| | | |

• Bunları bilməliyik • **ÖLKƏ VƏ XALQ ADLARI**

Bəzi xalq adlarına **-stan, -iya** şəkilçiləri artırmaqla ölkə adları düzəlir. Məsələn:

| Xalq adı | Ölkə adı |
|---|---|
| gürcü | Gürcüstan |
| yapon | Yaponiya |

Sözün kökü samitlə bitdikdə -stan şəkilçisinin əvvəlinə sait əlavə olunur.
Məsələn: Əfqanıstan, Özbəkistan, Monqolustan.
Ölkə adları böyük hərflə, xalq adları isə kiçik hərflə yazılır.

**B Xalq adlarından ölkə adları bildirən sözlər düzəldin. Orfoqrafiya lüğətindən istifadə etməklə sözləri yoxlayın.**

*türk, alman, macar, çex, türkmən, bolqar, tacik, ispan, qazax, rumın*

• Nümunə •

qırğız – Qırğızıstan
eston – Estoniya

**C Sözləri düzgün yazmaqla cədvəl üzrə qruplaşdırın.**

azərbaycanlı, ukraynalı, latviya, amerikalı, koreya, ukrayna, ərəb, latviyalı, azərbaycan, amerika, ərəbistan, koreyalı.

| ölkə adı | xalq adı |
|---|---|
| | |

• Diqqət et •

Bəzi xalq adları ölkə adlarına **-lı**[4] şəkilçisi artırmaqla düzəlir. Məsələn:

| ölkə adı | xalq adı |
|---|---|
| Meksika | meksikalı |
| Çin | çinli |

**Ç Mətni oxuyun. Ölkə adlarının yazılışındakı səhvləri düzəldərək cümlələri köçürün.**

*Dünyanın ən kiçik ölkələri olan vatikan, san-marino, monako Avropada yerləşir. Cəmi 842 nəfər vətəndaşı olan vatikan ən az əhalisi olan kiçik dövlətdir. Ölkə italiyanın paytaxtı romanın qərb hissəsində yerləşir.*

# Ümumiləşdirici təkrar

**A** **Hər hansı bir ölkə haqqında məlumat almaq üçün hansı sualları verərdiniz? Həmin sualları dəftərinizə qeyd edin.**

**B** **Məlumat vərəqinə baxın. Azərbaycan haqqında bir neçə cümlə yazın.**

Azərbaycan



| | |
|---|---|
| Yerləşdiyi materik | Avrasiya |
| Paytaxtı | Bakı |
| Ərazisi | 86 min $km^2$ |
| Əhalisi | 10 milyondan çox |
| Dövlət dili | Azərbaycan dili |
| Pul vahidi | manat |



**C** **Bir-birinə əks anlayışları bildirən sözləri qarşı-qarşıya yazın.**

*baş, az, yuxarı, dərə, gec, ayaq, isti, çox, təpə, tez, aşağı, soyuq*

**Ç** **Uyğunluğu müəyyən edin.**

1. Sözün kökü say bildirir.
2. Sözün kökü əlamət bildirir.
3. Sözün kökü isimdir.
4. Sözün kökü hərəkət bildirir.

A) bazarlıq
B) birlik
C) qaçış
D) təmizlik

**D** **Nöqtələrin yerinə mücərrəd isimlər yazmaqla cümlələri tamamlayın.**

1. Günəş ətrafa (işıq, istilik) ... verir.
2. Aysu (şəhərə, fikrə) ... getdi.
3. İdmançı (qələbə, medal) ... qazandı.

**E** **Verilmiş sözlərdən söz birləşməsi yaradın.**

1. məktəb, həyat;
2. müxbir, müsahibə;
3. biz, xalq;
4. qurban, bayram.

# 3 QƏRİBƏ HEYVANLAR

**A** **Şeiri oxuyun. Adı çəkilən heyvanları xəritədə tapın.**

## QƏRİBƏ HEYVANLAR

Bu dünyada o qədər
Maraqlı heyvanlar var.
Hərəsi bir möcüzə:
Ceyran, manqust[1], canavar.

Zürafənin, bəbirin
Nə gözəl xalları var.
Maralın buynuzların
Sanki əllə yonublar.

Okapi[2], pələng, zebrin
Naxışları rəngbərəng.
Kim çəkib zolaqların
Səliqəli, həm qəşəng?

Koalayla kenquru
Balalardan doymurlar.
Kisədə böyüdürlər,
Gözlərindən qoymurlar.

Pinqvin, dəvəquşu
Uça bilməyən quşdur.
Tenrek[3] iynələrindən
Düşməninə tanışdır.

Hər heyvanın müxtəlif,
Sirli həyat tərzi var.
Bir-birindən maraqlı,
Qəribədir heyvanlar.

*Şəhla Zahidova*




[1]***Manqust*** *– Afrika və Hindistanda yaşayır. Dərisi sıx və sərt tüklüdür.*
[2]***Okapi*** *– zürafəyə bənzəyən heyvan. Dərisi qəhvəyi rəngli, bədəninin aşağı tərəfi ağ zolaqlıdır.*
[3]***Tenrek*** *– Madaqaskarda yaşayan heyvan. Dərisi iti, xırda tikanlarla örtülüdür.*




**B** **Şeirdə adı çəkilən heyvanların hansı materikdə yaşadığını müəyyən edin.**

**C** **Bəs siz hansı heyvanlarda qəribə xüsusiyyətlər görmüsünüz?**

# •fəsil• 1 MAMONT VƏ FİL

**1 A Nəsli kəsilmiş hansı heyvanları tanıyırsınız? Həmin heyvanlar haqqında bildiklərinizi danışın.**

## MAMONT BALASI



Uzaq Şimalda, okeanın sahilində bir qaya ucalırdı. Qayanın altındakı mağarada iri buz parçasının içində donmuş mamont balası vardı.

Günlərin birində havalar istiləşməyə başladı. Buz parçası əridi və mamont balası ayıldı.

– Ana! – deyə o qışqırdı, amma heç kəs cavab vermədi.

Mamont balası anasını axtarmağa getdi. Yolda o, ayı balasına rast gəldi.

– Sən kimsən? – deyə ayı balası heyrətlə soruşdu.

– Bilmirəm. Mən anamı axtarıram, sən onu görməmisən?

– Yox, görməmişəm! Gəl morjun yanına gedək. O hər şeyi bilir!

Morj diqqətlə mamont balasına baxdı. Sonra dedi:

– Çox qədim zamanlarda burada belə heyvan yaşayıb, amma sonradan onlar Afrikaya köçüblər.

– Mən də Afrikaya – anamın yanına getmək istəyirəm!

Morj ona Afrikaya gedən yolu başa saldı. Mamont balası morja təşəkkür edib yola düzəldi.

***

Xeyli yol getdikdən sonra mamont balası Afrikaya çatdı. Burada bir meymuna rast gəldi.

– Sən kimsən? – deyə meymun heyrətlə soruşdu.

– Bilmirəm. Mən anamı axtarıram.

– Mən sənin ananı tanımıram. Gəl begemotun yanına gedək. O hamını tanıyır.

Onlar begemotun yanına getdilər. Begemot mamont balasına baxıb dedi:

– Sən fil balasına oxşayırsan. Filin yanına gedin. O bilər.

Fil mamont balasını görüb təəccübləndi:

– Sən mənə çox oxşayırsan. Amma tüklüsən.

– Mən şimaldan gəlmişəm. Səni çox axtarmışam.

Fil dedi:

– Qədim zamanlarda şimalda mamontlar yaşayıb. Mənə elə gəlir ki, sən mamont balasısan.

– Deməli, mən sənin balan deyiləm? – deyə mamont balası ağladı.

– Ağlama. Əslində, ikimiz də eyni nəsildənik. Məncə, biz ana-bala ola bilərik.

Mamont balası sevincək qışqırdı:

– Axır ki, mən anama qovuşdum!

Mamont anasına sığındı. Fil də xortumu ilə onu qucaqladı.

*Dina Nepomnyaşayanın "Mamont balası üçün ana" nağılı əsasında*



**Söz boğçası**

- mamont
- nəsil
- begemot
- morj

## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

- *Necə oldu ki, mamont balası ayıldı?*
- *Mamont balası kimi axtarırdı?*
- *Mamont balası nə üçün Afrikaya yollandı?*

**C** **Mamont balası anasını axtararkən hansı heyvanlara rast gəldi? Ardıcıllığı müəyyən edin.**


a


b


c


ç

**Ç** **Araşdırma**

**Qruplara ayrılın və heyvanlar haqqında araşdırma aparın.**

*1-ci qrup: ağ ayı və qonur ayı*
*2-ci qrup: morj və begemot*
*3-cü qrup: şimpanze və qorilla*
*4-cü qrup: dinozavr və ixtiozavr*

## Düşün və cavab ver

**2 A** **"Mamont balası" mətnində fil mamont balasına deyir: "Əslində, ikimiz də eyni nəsildənik". Filin sözlərini necə izah edərdiniz?**

**B** **Aşağıda mamont və fil haqqında məlumatlar verilmişdir. Bu məlumatlardan çıxış edərək mamont və fili müqayisə edin.**

• ***Afrika fili.*** *Sürü halında yaşayır. Hündürlüyü 4 metrə yaxındır. Çəkisi 5 tondur. Güclü xortumunun ucunda burun dəlikləri yerləşir. Filin dişinin uzunluğu 2-3 metr, ağırlığı 80 kiloqramdır. Otyeyən heyvandır. Qırışmış, tüksüz dərisi var. Afrikanın çöllərində və meşələrində yaşayır.*



• ***Mamont.*** *Nəsli kəsilmiş nəhəng heyvandır. Bəzilərinin çəkisi 10-15 ton, hündürlüyü 5 metr olub. Şimalda soyuq iqlim şəraitində sürü halında yaşayıb. Uzun tükləri onu soyuqdan qoruyub. 4 metr uzunluğunda dişləri, güclü xortumu olub. Otla qidalanıb.*



• Yadda saxla • **MÜQAYİSƏ CƏDVƏLİ**

• Varlıqların oxşar və fərqli xüsusiyyətlərini müəyyən edərkən **müqayisə cədvəli**ndən istifadə olunur.

| Göstəricilər | Afrika fili | Mamont |
|---|---|---|
| Yaşayış tərzi | Sürü halında | Sürü halında |
| Qidalanması | Otyeyən | Otyeyən |
| Olçüləri | 4 metr | 5 metr |
| Çəkisi | 5 ton | 10-15 ton |
| Digər xüsusiyyətləri | 1. Hazırda yaşayır.<br>2. Tüksüzdür. | 1. Nəsli kəsilib<br>2. Tüklü olub. |

**C** **Qruplarla iş**

**Müqayisə cədvəlindən istifadə edərək heyvanlar haqqında topladığınız məlumatları (səh. 59, tapşırıq Ç) təqdim edin.**

# Dil qaydaları

**3 A Mətndən verilmiş cümlələri oxuyun. Fərqləndirilmiş sözlərdəki səhvləri müəyyən edin.**

*– Mamont balası taşəkgür edib yola düzəldi.*

*– Bir meymun ağacdan yerə hopbandı.*

*– Günlərin birində havalar isdiləşməyə başladı.*

• Bunları bilməliyik • **SÖZ ORTASINDA k, t, p, q SAMİTLƏRİNİN YAZILIŞI**

• Sözlərdə ***k, t, p, q*** samitləri bəzən fərqli səslənir. Ona görə də bu cür sözlərin yazılışına xüsusi diqqət etməliyik.

*Qoşa işləndikdə*

| Doğru | Yanlış |
|---|---|
| tappıltı | tapbıltı |
| səkkiz | səkgiz |
| əlbəttə | əlbətdə |
| toqqa | tokqa |

*Başqa samitlə yanaşı gəldikdə*

| Doğru | Yanlış |
|---|---|
| bitki | bitgi |
| isti | isdi |
| məqsəd | məksəd |

**B Şəkillərin adında nöqtələrin yerinə hansı hərf uyğun gəlir?**


*top...uz*


*mütək...ə*


*do...quz*


*aya...qabı*

**C Qırmızı rənglə verilmiş sözlər səhv yazılıb. Həmin sözləri düzgün yazmaqla cümlələri köçürün.**

*1. Sətdar Bəhlulzadənin rəsmləri hakqında məlumat topladıq.*

*2. Hər gün səhər saat səkgizdə dərs başlayır.*

*3. Küçədən tapbıltı səsləri gəlirdi.*

*4. Rəkqasları səhnədən alqışlarla yola saldılar.*

**Ç Nöqtələrin yerinə uyğun hərfləri yazmaqla cümlələri köçürün.**

*1. Bağçadakı şaf...alı ağacı çiçəkləmişdi. (t, d)*

*2. Sinfimiz həf...əsonu gəzintiyə çıxacaq. (d, t)*

*3. Körpənin üzündə səp...ilər var idi. (g, k)*

*4. Düşmən çoxlu it...i verdi. (k, g)*

*5. Görülən işdə nö...san ola bilər. (q, k)*

*6. Tədbirin mə...sədi qəhrəmanlarımızı yad etmək idi. (k, q)*

# NADİR MEŞƏ HEYVANLARI

1 A **Hansı kisəli heyvanları tanıyırsınız? Bu heyvanlar haqqında bildiklərinizi danışın.**

KOALA

*Avstraliya kisəli heyvanlar və rəngbərəng quşlarla zəngin yerdir. Bu materikdə yaşayan kisəlilərdən biri də koaladır. Balaca koala həyatının böyük hissəsini hündür evkalipt ağaclarının budaqlarında keçirir.*



***Koalanın görünüşü necədir?***

Koalalar qəhvəyi-boz rəngli olur. Onların uzunluğu 60-85 sm, çəkisi isə 4-15 kq olur.

***Koala harada yaşayır?***

Koalalara yalnız Avstraliyada rast gəlmək olar. Onlar, əsasən, materikin cənubunda və şərqində, evkalipt meşələri ilə zəngin yerlərdə yaşayırlar.

***Koala necə yaşayır?***

Bəzi heyvanlar sürü şəklində yaşayır. Koala isə tək yaşamağı sevir. Günün böyük hissəsini ağac başında yuxulayır. Ona görə də koala tənbəl heyvan hesab olunur. O, iyirmi ilə qədər ömür sürür.

***Koala nə ilə qidalanır?***

Koala otyeyən heyvandır. O, evkalipt ağacının yarpaqları ilə qidalanır. Bu ağacın yarpaqları su ilə zəngindir. Koalanın suya olan ehtiyacını bu yarpaqlar ödəyir.

Son 100 ildə Avstraliyada yaşayan koalaların sayı kəskin şəkildə azalmışdır. Buna səbəb onların ovlanması, tez-tez baş verən meşə yanğınları və evkalipt meşələrinin məhv edilməsidir. Ona görə də koala ovuna qəti qadağa qoyulmuşdur.

## Nə anladın?

B **Doğru, yoxsa yanlış?**

*1. Koala kisəli heyvandır.*
*2. Koalanın uzunluğu bir metrdən çoxdur.*
*3. Avstraliyada evkalipt meşələri çoxdur.*
*4. Evkalipt ağacının yarpaqları su ilə zəngindir.*
*5. Koala sürü şəklində yaşayır.*
*6. Koala yatmaq istəyəndə ağacdan yerə düşür.*

## Düşün və cavab ver

**C** **Hansı plakat mətnin son abzasının məzmununu ifadə edir?**




**Ç** **Sizcə, koalaların sayını artırmaq üçün hansı tədbirlər görmək lazımdır?**

## Yaradıcı iş

**D** **Kütləvi ovlanma və meşə yanğınları koalaların sayının azalmasına səbəb olur. Siz də bu mövzuda şüar yazın və plakat hazırlayın.**

**E** **Araşdırma**

**Oxlu kirpi haqqında araşdırma aparın və məlumat toplayın.**

**2** **A** **Aşağıdakı cümləri "Koala" mətninin hansı hissələrinə əlavə edərdiniz?**

*1. Avstraliyanın bu hissələrində evkaliptin 600-dən çox növü var.*
*2. Koalanın pəncələri geniş açıldığı üçün asanlıqla ağacdan ağaca atılır.*
*3. Koalanın sinəsindəki tükün rəngi nisbətən açıqdır.*

• Yadda saxla • **Yarımbaşlıqlar**

İnformativ mətndə verilən məlumatlar, adətən, **yarımbaşlıqlar** altında qruplaşdırılır. Yarımbaşlıqlar oxucuya lazım olan məlumatı tez tapmağa kömək edir. Yarımbaşlıqlar, adətən, sual cümləsi və ya söz birləşməsi şəklində ifadə olunur.

**B** **Verilmiş suallara cavab tapmaq üçün mətnin hansı yarımbaşlıqlarına müraciət etmək lazımdır?**

*1. Koala ət yeyir?*
*2. Koala nə rəngdə olur?*
*3. Hindistanda koala yaşayır?*
*4. Koala böyükdür, yoxsa ayı?*
*5. Koala neçə il yaşayır?*

**C** **Aşağıdakı mətni oxuyun. Abzasları uyğun yarımbaşlıqlarla adlandırın.**

**ZOLAQLI TENREK** Zolaqlı tenrek Afrikanın cənubunda, Madaqaskar adasında yaşayır. Ona rütubətli və sıx meşələrdə rast gəlmək olar. Torpaqda yuva qurur.

Bu, kiçik ölçülü heyvandır. Bədəninin uzunluğu 15-18 santimetrə qədərdir. Çəkisi 150 qramdır. Quyruğu çox qısadır. Cırcırama kimi cırıldayır.

Zolaqlı tenrekin bədəni parlaq tüklü və rəngarəngdir. Dərisi xırda tikanlarla örtülüb. Həm tükləri, həm də tikanları qara, sarı və ağ rəngdədir. Baş və sinə hissəsində sarı rəng daha çox nəzərə çarpır.



Havadan asılı olaraq tenrek bədən temperaturunu dəyişə bilir. Soyuq havada tez-tez hərəkət edərək özünü isidir. Amma hava çox soyusa, yuvasına girib qış yuxusuna gedir.

Həşəratlarla qidalanır. Yeni doğulmuş tenrek balası bir neçə gün südlə qidalanır. Sonra həşəratları yeməklə dolanır. 2-3 il ömür sürür.

**Ç** **Aşağıda verilmiş yeni məlumatlar hansı yarımbaşlıqlara uyğun gəlir?**

1. Tenrekin bəzi növləri suda yaşayır. Onlar xərçənglərlə qidalanır.
2. Tenreklər tək yaşayırlar. Gündüzləri yuvalarında keçirir, gecə isə daha aktiv olurlar.
3. Tenrekin müxtəlif növləri var. Bəzi növləri kirpi və siçovula bənzəyir.

## Yaradıcı iş

**D** **Oxlu kirpi haqqında əldə etdiyiniz məlumatlar (səh. 63) əsasında mətn yazın.**

**1. Verilmiş cümlələrdən istifadə edərək mətnin giriş və sonluq hissələrini yazın.**

- Oxlu kirpi məməli heyvandır.
- Son dövrdə sayı xeyli azalmışdır.
- Azərbaycanda rast gəlinən nadir heyvanlardan biri də oxlu kirpidir.
- Nəsli kəsilmək üzrə olduğundan ovlanması qadağan edilmişdir.

**2. Mətnin əsas hissəsini yazarkən məlumatları yarımbaşlıqlar altında qruplaşdırın.**

## Dil qaydaları

**3 A** **Hansı bəndlərdə koala haqqında məlumat verilir?**

*A. Evkalipt ağacının yarpaqları*
*B. Koalanın bədəninin uzunluğu*
*C. Koala Avstraliyada yaşayır.*
*Ç. Koalanın suya olan ehtiyacı*
*D. Koala otyeyən heyvandır.*

**• Bunları bilməliyik •** **SÖZ, SÖZ BİRLƏŞMƏSİ, CÜMLƏ**

• Söz və söz birləşməsi müəyyən anlayışı ifadə edir. Cümlə isə fikir bildirir.

| *söz* | *söz birləşməsi* | *cümlə* |
|---|---|---|
| ↓ | ↓ | ↓ |
| heyvan | kisəli heyvan | Koala kisəli heyvandır. |
| ↓ | ↓ | ↓ |
| *anlayış* | *konkret anlayış* | *fikir* |

**B** **Verilmiş söz sıralarını cədvəl üzrə qruplaşdırın.**

• meşə heyvanı
• Koala meşə heyvanıdır.
• Tenrekin iynəsi çoxdur.
• tenrekin iynəsi
• güclü xortum
• Filin xortumu güclüdür.
• Tənbəl koala çox yatır.
• tənbəl koala
• ağacın yarpağı
• Ağacın yarpağı yaşıldır.
• qəribə heyvan
• Kenquru qəribə heyvandır.

| *söz birləşməsi* | *cümlə* |
|---|---|
| | |

**C** **Verilmiş söz və söz birləşmələrindən cümlələr düzəldin.**

*1. Adil, yaxın dost, nağıl kitabı, bağışlamaq;*
*2. Nənə, bayram axşamı, şirin çörək, bişirmək;*
*3. Murad, kiçik bacı, rəqs dərnəyi, aparmaq;*
*4. Sevda, rəsm albomu, gözəl şəkillər, çəkmək;*
*5. Baba, hər axşam, nəvə, maraqlı nağıl, danışmaq.*

**• Diqqət et •**

Cümlədə sözlər arasında əlaqə yaratmaq üçün çox zaman onlara şəkilçilər artırılır.

***Aqil pəncərədən baxır.***

# MANQUST

**1 A** **Hansı heyvanlar ilanla döyüşə bilir? Şəkillərə baxın. Yəqin ki, kirpini tanıdınız. Bəs digər heyvan haqqında nə bilirsiniz?**





**RİKKİ-TİKKİ-TAVİ** *Rikki-Tikki-Tavi pişik boyda bir manqustdur. Onun gözləri çəhrayı rəngdədir. Burnunun ucu daim hərəkətdədir: ətrafı qoxulayır ki, təhlükədən xəbər tutsun. O, pəncələri ilə xəzini darayır, bəzən isə quyruğunu fırça kimi qabardır. Təhlükə görəndə isə möhkəm qışqırır: rikk-tikk, tikki-tikki, tavv.*

*Bu hekayədə Rikkinin kobraya qarşı mübarizəsindən danışılır. Ona bu işdə dərziquşu* Darsi və siçovul Çuçundra kömək etmişdi.*

**dərziquşu* – *sərçələr dəstəsindən kiçik meşə quşu*

**1-ci hissə** Günlərin birində güclü yağışdan sonra çay daşdı. Çayın axını Rikkini uzaqlara apardı. Rikki özünə gələndə başının üstündə bir oğlan gördü. Bu, Teddi idi. Rikkini onun ailəsi xilas etmişdi.

Onlar islanmış Rikkini quruladılar. Ona yemək və su verdilər. Bir neçə gün sonra Rikki özünə gəldi. O bu qayğıkeş və mehriban ailəyə minnətdar idi. Qəribə idi ki, Rikki indiyə qədər elə düşünürdü ki, insanlarla manqustlar düşməndirlər. Ancaq Teddinin ailəsi Rikki ilə dost olmuşdu. Ona görə də Rikki öz evinə dönməyib onlarla qalmağa qərar verdi.



Teddigilin bağçasında dərziquşu Darsi yuva qurmuşdu.

Rikki bir gün bağçaya çıxarkən Darsinin ağladığını gördü.

– Niyə ağlayırsan? – deyə soruşdu.

– Mənim balam ağacdan yerə düşmüşdü. Naq onu yedi.

– Naq kimdir?

Kolların arasından qorxunc bir fısıltı eşidildi:

– Naq mənəm.

Bu, qara rəngli, qəddar baxışlı, nəhəng bir kobra* idi.

– Bura bax, Naq, Darsinin balasını niyə yemisən?

Naq bu dəfə daha bərk fısıldadı. Ancaq Rikkini qorxuda bilmədi. Rikkinin gözləri qıpqırmızı olmuşdu. O, Naqla döyüşməyə hazırlaşırdı. Lakin bu zaman Darsinin qışqırığını eşitdi:

– Özünü gözlə, Rikki.



***kobra** – *Afrika və Asiya cəngəlliklərində yaşayan zəhərli ilan*

Kobra Naqayna dostuna köməyə gəlmişdi. O, kolların arası ilə sürünərək arxadan Rikkiyə hücum etmək istəyirdi. Ancaq Darsinin sayəsində Rikki bu hücumdan qorundu. Kobralar isə otların arasında gözdən itdilər.

## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

- *Əsərdə hansı obrazlar var?*
- *Baş qəhrəman kimdir?*
- *Nəyə görə baş qəhrəmanın adı Rikki-Tikki-Tavidir?*
- *Rikkini kim xilas etdi?*
- *Naq hansı heyvanın adıdır?*
- *Rikki nəyə görə kobra ilə döyüşməyə hazırlaşırdı?*

**C** **Mətnin hansı hissəsində manqust haqqında məlumat verilir? Bəs dərziquşu və kobra haqqında məlumatı haradan əldə etdiniz?**

• Yadda saxla • **HAŞİYƏ**

Bəzən mətndən kənarda tanış olmayan sözlərin izahı və ya əlavə məlumat verilir. Buna **haşiyə** deyilir.

Mətndə haşiyənin aid olduğu sözün sonunda, adətən, ulduz işarəsi (*) qoyulur.

## Düşün və cavab ver

**Ç** **Sizcə, oxuduğunuz mətni bitmiş hesab etmək olarmı? Mətni necə davam etdirərdiniz?**

**2 A** **Mətnin davamını oxuyun. Öz təxminlərinizlə müqayisə edin.**



**2-ci hissə** Rikkinin qəhrəmanlığı hamının ürəyincə idi. Naq və Naqayna isə qəzəbdən özlərinə yer tapa bilmirdilər. Naq qərara gəldi ki, gizlincə evə girib Teddini sancsın.

Gecə vaxtı Naqla Naqaynanın söhbətini eşidən Çuçundra tez Rikkinin yanına qaçdı. Naqın intiqam planını ona danışdı. Rikki Teddinin çarpayısı altında gizlənib gözləməyə başladı.

Gecəyarısı evin içində fısıltı səsi eşidildi. Bu, Naq idi. O, Teddinin çarpayısına tərəf sürünürdü. Bunu görən Rikki onun üstünə tullandı. Pəncəsi ilə ilanın boynunu möhkəm sıxdı və dişlərini onun boynuna keçirdi. Naq bir qədər çırpındı, sonra hərəkətsiz qaldı.

Rikki bilirdi ki, Naqayna ondan intiqam alacaq. Onu qabaqlamaq qərarına gəldi. Səhər açılan kimi bağa gedib onun yuvasını axtarmağa başladı. Elə bu zaman Darsi həyəcanla xəbər gətirdi:

– Tez gəl, Rikki, Naqayna evə girdi. Evdəkiləri öldürəcək.

Rikki sürətlə evə qayıtdı. İçəri girəndə gördü ki, Teddi atasının qucağındadır. Bu onu bir qədər sakitləşdirdi. Amma Naqayna qıvrıla-qıvrıla ata ilə oğula tərəf sürünürdü. Bunu görən Rikki adəti üzrə qışqırdı:

– Rikk-tikk, tikki-tikki, tavv.

Naqayna bu səsi eşidib geri döndü. Rikkinin qarşısında hücuma hazır vəziyyət aldı.



Rikki Naqaynanı əzmək üçün fürsət axtarırdı. Ancaq bu, asan deyildi.

Naqayna həm böyük, həm də çox hiyləgər idi. O, bir göz qırpımında evdən çıxıb yuvasına doğru şığıdı.

Rikki də onun arxasınca bağa qaçdı. Naqayna yuvasına girəndə Rikki onun quyruğundan tutdu. Amma Naqayna çox güclü idi. O, Rikkini də sürüyərək yuvasına apardı.

Teddinin ailəsi və bağda yaşayan heyvanlar intizarla yuvanın qara dəliyinə baxırdılar. Yuvadan vahiməli fısıltı, çığırtı, boğuşma səsləri gəlirdi. Birazdan səslər kəsildi. Teddi “Rikki, Rikki” deyə qışqırıb ağlamağa başladı. Darsi qəmli nəğmə oxuyurdu.



Birdən Teddi də, Darsi də susdular. Yuvanın ağzında Rikkinin başı göründü. O, yaralı idi. Var gücünü toplayıb yuvadan çıxdı. Yavaş səslə dedi:

– Mən qalib gəldim.

Rikkini sağ-salamat görən dostları çox sevindilər. Bundan sonra onların həyatı üçün təhlükə yox idi. Həmin gündən bağda hamı mehriban və xoşbəxt həyat sürdü.

*Redyard Kiplinq*
*“Cəngəlliklər kitabı”ndan*

**B** **Uyğunluğu müəyyən edin. Nəyə görə 1-ci sıradakı sözlər böyük hərflə yazılıb?**

1 Çuçundra   2 Darsi   3 Naq   4 Teddi   5 Rikki

a kobra   b dərziquşu   c manqust   ç siçovul   d oğlan

**C** **Mətnin hissə və epizodlarını yarımbaşlıqlarla uyğunlaşdırın.**

- **Giriş**

  **Əsas hissə:**
- 1-ci epizod
- 2-ci epizod
- 3-cü epizod
- 4-cü epizod
- **Sonluq**

a Kobralarla ilk qarşılaşma
b Rikki ilə Naqaynanın ölüm-dirim döyüşü
c Əsər qəhrəmanlarının sonrakı taleyi
ç Əsərin qəhrəmanı haqqında ümumi məlumat
d Naqın intiqam cəhdi
e Teddinin ailəsinin Rikkini xilas etməsi

**3 A** "Rikki-Tikki-Tavi" mətnindən manqust haqqında öyrəndiklərinizi qeyd edin. Bu heyvan haqqında başqa nəyi bilmək istərdiniz?

**B** **Aşağıdakı mətni oxuyun və yeni öyrəndiyiniz məlumatları qeyd edin.**

## MUNQO



**1.** Manqustun çoxlu növləri var. Ən geniş yayılmış növü *adi manqust* adlanır. Ona *munqo* da deyirlər.

**2.** Munqo Asiyada, daha çox Hindistanda yaşayır. Ona kolluqlarda və otlu yerlərdə rast gəlmək olar.

**3.** Munqonun uzunluğu 40-45 santimetrdir. Bədəni uzunsov, qamətlidir. Qəhvəyi-boz rəngli tükləri var.

**4.** Munqo ətyeyən heyvandır. Daha çox siçovul, kərtənkələ, ilan və quşlarla qidalanır. Bundan başqa, o, müxtəlif həşəratlar, eləcə də əqrəb yeyir.

**5.** Munqo ilanın ən qorxulu düşmənidir. O çəkinmədən zəhərli ilana hücum edir. İlanın ətrafında fırlanaraq aldadıcı hərəkətləri ilə onu yorur. Nəhayət, fürsət tapıb ilanın boğazından yapışır və möhkəm dişləri ilə başını bədənindən ayırır. Çox cəld olduğuna görə ilan onu tuta bilmir.

**6.** Munqo yırtıcı heyvan olsa da, bir çox yerlərdə insanlar bu heyvanı əhliləşdirib evdə saxlayırlar. Çünki manqust olan evə, həyətə ilan və siçovullar yaxın gəlmir.

**C** **Yarımbaşlıqların hansı abzaslara aid olduğunu müəyyən edin.**

*A. Munqo ilana qalib gələ bilərmi?*
*B. Munqonun görünüşü necədir?*
*C. Munqonu əhliləşdirmək olarmı?*
*Ç. Munqo nədir?*
*D. Munqo harada yaşayır?*
*E. Munqo nə ilə qidalanır?*

**• Yadda saxla •**

**Bədii** mətndə yarımbaşlıqlar epizodlara, informativ mətndə isə məlumatlara aid olur.

**Ç** **4-cü abzasdakı məlumatlara diqqət edin. Hansı məlumat "Rikki-Tikki-Tavi" mətninin məzmununa uyğun gəlmir?**

**D** **Kobra haqqında mətni dinləyin. Mətnin hər bir hissəsini yarımbaşlıqla adlandırın.**

# Dil qaydaları

**4 A** **69-cu səhifədə "Rikki-Tikki-Tavi" mətninin yarımbaşlıqları verilmişdir. Söz birləşməsi şəklində olan bu yarımbaşlıqları nəqli və sual cümlələri şəklində ifadə edin.**

• Nümunə •

*Teddinin ailəsinin Rikkini xilas etməsi*

Nəqli cümlə → *Teddinin ailəsi Rikkini xilas edir.*

Sual cümləsi → *Rikkini kim xilas etdi?*

• Bunları bilməliyik • **CÜMLƏNİN MƏQSƏDƏ GÖRƏ NÖVLƏRİ**

• Cümlənin ifadə etdiyi fikir məlumat, sual və ya əmr şəklində ola bilər.

Cümlə:
- xəbər → *Rikki Teddini kobradan qorudu.*
- sual → *Rikki Teddini kobradan necə qorudu?*
- əmr → *Rikki, Teddini kobradan qoru.*

Cümlədəki fikrin necə ifadə olunması danışanın məqsədindən asılıdır. Beləliklə, cümlənin məqsədə görə üç növü var:

1. **Nəqli cümlə** xəbər, məlumat verir, sonunda ***nöqtə*** qoyulur.
2. **Sual cümləsi** cavab tələb edir, sonunda ***sual işarəsi*** qoyulur.
3. **Əmr cümləsi** göstəriş, tapşırıq verir, sonunda ***nöqtə*** qoyulur.

**B** **Verilmiş cümlələri növlərinə görə qruplaşdırmaqla köçürün.**

*1. Kitabın vərəqlərini əzmə.*
*2. Sevil məktəbə tələsir.*
*3. Aydın harada yaşayır?*
*4. Leyla üçüncü sinifdə oxuyur.*
*5. Aysel nə vaxt gələcək?*
*6. Oturan zaman kürəyini düz saxla.*
*7. Səma dərslərini həvəslə öyrənir.*
*8. Dərsə gecikməyin.*

**C** **Söz və söz birləşmələrindən istifadə edərək nəqli, sual və əmr cümlələri düzəldib yazın.**

*1. Ziya, kitab rəfi, yığışdırmaq;*
*2. Gülay, piano çalmaq, öyrənmək;*
*3. Mehriban dostlar, görüşmək;*
*4. Adil, yarış, iştirak etmək;*
*5. Şamil, park, gəzmək.*

• Nümunə •

Əli, evin işığı, söndürmək

*1. Əli evin işığını söndürdü.*
*2. Əli evin işığını niyə söndürdü?*
*3. Əli, evin işığını söndür.*

# ANTARKTİDA SAKİNLƏRİ

**1 A Pinqvinlər haqqında nə bilirsiniz? Mətni oxuyun və pinqvin haqqında yeni öyrəndiyiniz məlumatları qeyd edin.**

## PİNQVİN BALASI



**Söz boğçası**

• üzgəc • oyuq • buzlaq

Bir gün səhər Ana pinqvin yuxudan oyananda gördü ki, balalarından biri yuvada yoxdur. O, Ata pinqvini oyatdı. Onlar cəld yuvadan bayıra çıxdılar. Hər tərəfə baxsalar da, balanı tapa bilmədilər.

Ana pinqvin ağlamağa başladı:

– Onu tez tapmalıyıq. Axı çox balacadır, təkbaşına geri qayıda bilməz.

Ata pinqvin dərindən ah çəkdi və kədərlə dedi:

– Eh, kaş ki uça biləydik! Onda ətrafı rahat görə bilərdik.

Pinqvinlər balalarını tapmaq üçün yüksək bir qayanın üstünə çıxdılar. Dənizə, qayalıqların üstünə nəzər saldılar. Bala pinqvin gözə dəymirdi.

Ata pinqvin dedi:

– Gəl ayrı-ayrı axtaraq, bəlkə, elə daha tez taparıq.

Onların hərəsi bir tərəfə getdi.

***

Ana pinqvin buzun üstü ilə sürüşərək sahilə qədər endi*. Burada, iri buzlağın üzərində oyuq gördü. Ana pinqvin ora baxanda böyük bir dəniz fili başını oyuqdan çıxardı. Onun iri, qara gözləri və uzun bığları var idi. Dəniz fili təəccüblə soruşdu:

– Sənə nə lazımdır?

Ana pinqvin olanları ona danışdı. Dəniz fili dedi:

– Mən buralarda balaca pinqvin görməmişəm.

**Pinqvinlər qısa qanadlarından suda üzgəc kimi istifadə edirlər. Qanadlar həmçinin buz üstündə rahat sürüşməyə kömək edir.*

***

Ana pinqvin kədərli halda dənizin sahilində buz qayalıqda oturdu. Birdən suda bir neçə delfin göründü. Delfinlərdən biri başını sudan çıxarıb dedi:

– Sən niyə burada oturmusan? Kimi gözləyirsən?

– Mən balamı itirmişəm, – deyə Ana pinqvin ağlayaraq cavab verdi. – Hər yeri axtarmışam. Bilmirəm nə edim...

Delfin dedi:

– Biz dənizdə, buz parçasının üstündə bir bala pinqvin görmüşük. Amma inanmıram ki, o sənin balan olsun. Sən də bizim kimi ağ-qarasan. Amma o, qəhvəyi rəngdə idi.

Bunu eşidən Ana pinqvin qışqırdı:

– O mənim balamdır. Böyüyəndə o da mənim kimi ağ-qara olacaq.

Delfin onu sakitləşdirdi:

– Ağlama, biz sənə kömək edərik. Burada otur, bizi gözlə.

Bunu deyib Delfin bir andaca okean sularında yoxa çıxdı.



***

Ana pinqvin xəyallara daldı. Ata pinqvinlə birlikdə yuvalarını necə qurduqlarını, yumurtaları necə qoruduqlarını xatırladı. Yumurtalardan körpə pinqvinlər çıxanda necə də sevinmişdilər!

Bu zaman Ata pinqvin ona yaxınlaşdı. O, qəmgin-qəmgin dedi:

– Balamızı tapa bilmədim.

Birdən uzaqda, okeanın sularında böyük bir buz parçası göründü*.

*Antarktidanın sahilləri buzlaqlardan ibarətdir. Bəzən iri buz parçaları qayalardan qopur və okean sularında üzür.*

O, yavaş-yavaş sahilə yaxınlaşırdı. Birazdan pinqvinlər buzun üzərində sevimli balalarını gördülər. Arxadan bir dəstə nəhəng ağ-qara delfin buz parçasını sahilə doğru itələyirdi.

Üzən buz parçası sahilə yan alanda Ata və Ana pinqvinlər özlərini balalarının üstünə atdılar. Onu aralarına alıb sahilə çıxardılar.

Xeyirxah delfinlər şən səslər çıxardılar. Onlar gördükləri işlə qürrələnirdilər. Delfinlərin başçısı Ana pinqvinə dedi:

– Bir daha balanızı gözünüzdən qoymayın. Sağlıqla qalın.

Delfinlər təşəkkür gözləmədən üzüb getdilər. Pinqvin ailəsi isə şad-xürrəm yuvaya qayıtdı.

## Nə anladın?

**B** **“Pinqvin balası” mətnindəki hadisələrin ardıcıllığını müəyyən edin.**

*A. Ana pinqvin dəniz filindən balasının yerini soruşdu.*
*B. Delfinlər buz parçasını itələyərək sahilə gətirdilər.*
*C. Ana və ata pinqvinlər balaları ilə yuvaya qayıtdılar.*
*Ç. Bir gün səhər məlum oldu ki, pinqvin balası itib.*
*D. Delfin söz verdi ki, bala pinqvini tapacaq.*
*E. Ana pinqvin balasının itməsini Delfinə danışdı.*

**C** **Araşdırma**

**Antarktida materikinin təbiəti və heyvanat aləmi haqqında məlumat toplayın.**

## Yaradıcı iş

**2 A** **Sizcə, necə oldu ki, bala pinqvin itdi?**
**Bu haqda mətnə epizod əlavə edib danışın.**
**2-ci haşiyədəki məlumatdan istifadə edin.**

• Yadda saxla • **ŞƏRH**

Mətndəki obraz və hadisələr haqqında haşiyələrdə verilən əlavə məlumat **şərh** adlanır. Şərhlər mətni daha yaxşı başa düşməyə kömək edir.

**B** **“Pinqvin balası” mətnindən pinqvin haqqında hansı məlumatları əldə etdiniz? Hansı məlumat mətndəki haşiyədə verilib?**

*1. Pinqvinlər uça bilmirlər.*
*2. Pinqvinlər qanadlarından suda üzgəc kimi istifadə edirlər.*
*3. Pinqvinlərin boyu 120 santimetrə, çəkisi 45 kiloqrama çatır.*
*4. Pinqvinlər yumurta qoymaqla çoxalırlar.*
*5. Pinqvinlər balıq və başqa dəniz heyvanları ilə qidalanırlar.*
*6. Bala pinqvinlər qəhvəyi rəngdə olur, böyüyəndə isə ağ-qara olur.*

## Təqdimat

**C** **Antarktida materikinin təbiəti və heyvanat aləmi haqqında topladığınız məlumatları təqdim edin.**

## Dil qaydaları

3 A **Verilmiş cümlələrdə *necə?* sualına cavab verən sözləri müəyyən edin.**

*1. Pinqvinlər yüksək bir qayanın üstünə çıxdılar.*
*2. Dəniz filinin iri, qara gözləri və uzun bığları var idi.*
*3. Pinqvin dünyaya gələndə qəhvəyi rəngdə olur.*
*4. Pinqvinlər buzun üzərində sevimli balalarını gördülər.*
*5. Xeyirxah delfinlər şən səslər çıxardılar.*

• Bunları bilməliyik • SİFƏT

• Varlığın əlamətini və ya keyfiyyətini bildirən sözlər **sifət** adlanır. Əlamət varlığın xarici görünüşü ilə bağlıdır. Keyfiyyəti isə gözlə görmək mümkün deyil.

| Əlamət bildirən sifətlər | Keyfiyyət bildirən sifətlər |
|---|---|
| *iri, yaşıl, balaca, qırmızı, armudu, kök* | *savadlı, xeyirxah, cəsarətli, ağıllı* |

Sifət – ***necə?, nə cür?, hansı?*** suallarına cavab verir.

B **Nöqtələrin yerinə keyfiyyət bildirən sifətlər seçib yazmaqla cümlələri köçürün.**

| | |
|---|---|
| *1. Mən bacıma ... kitab bağışladım.* | *qalın / maraqlı* |
| *2. Müəllim ... şagirdləri yarışa göndərdi.* | *ucaboy / çalışqan* |
| *3. Mahir ... kresloda əyləşdi.* | *qara / yumşaq* |
| *4. ... çiçəklər bağçaya yaraşıq verirdi.* | *ətirli / qırmızı* |
| *5. Otağın küncünə ... çarpayı qoyulmuşdu.* | *ağ / möhkəm* |

C **Cümlələrdəki keyfiyyət bildirən sifətləri əlamət bildirən uyğun sifətlərlə əvəz edin.**

*Əlamət bildirən sifətlər:* yumru, gözəl, ucaboy, qırmızı, boz

*1. Külək dadlı almaları yerə tökdü.*
*2. Nənə şirin kökələr bişirdi.*
*3. Balaca Əsli ağıllı qızdır.*
*4. Səməd cəsarətli oğlandır.*
*5. Acgöz canavar tələyə düşdü.*

# DELFİN

1 A "Pinqvin balası" mətnində delfinlər balaca pinqvini xilas edirlər. Sizcə, bu, həqiqətə uyğundurmu?

B Hər hansı canlı haqqında məlumat almaq istəyəndə hansı mənbələrə müraciət edirsiniz?




• Yadda saxla • **ENSİKLOPEDİYA**

Müxtəlif varlıqlar və hadisələr haqqında məlumat verən mənbələrdən biri **ensiklopediya** kitablarıdır. Ensiklopediyada mətnlər, adətən, şəkillər və haşiyələrlə müşayiət olunur.

C "Suda yaşayan heyvanlar" ensiklopediyasından aşağıdakı səhifələri oxuyun. Yeni öyrəndiyiniz məlumatları qeyd edin.

## DELFİNLƏR

**• Balıq, yoxsa məməli heyvan?**

Delfin suda yaşayır. Onun da balıq kimi üzgəcləri var, ona görə də çox cəld və sürətlə üzür. Lakin balığın bədəni pulcuqlarla örtülü olur, delfinin dərisi isə hamardır.

Balıq suyun dərinliyində qəlsəmələri ilə nəfəs alır. Delfin isə insan kimi ağ ciyərlə nəfəs alır. Ona görə də tez-tez suyun səthinə çıxır.

Balıqlar kürü qoymaqla çoxalır. Delfin isə dünyaya bala gətirir və onu süddə böyüdür.

Bu fərqlərə görə demək olar ki, delfin balıq deyil, məməli heyvandır.






**• Delfin ağıllıdır?**

Alimlər sübut ediblər ki, delfinlərin güclü yaddaşı var. Onlar bir dəfə gördükləri varlığı, eşitdikləri səsi, duyduqları qoxunu yadda saxlaya bilirlər. Delfinlər sürü şəklində yaşayır, öz aralarında vəzifələri dəqiq bölüşdürür və bir-birinə qayğı göstərirlər.

## Nə anladın?

**Ç** **Delfini balıqdan fərqləndirən üç xüsusiyyət haqqında danışın.**

**D** **“Delfinlər” mətnində hansı suallara cavab yoxdur?**

1. Delfinin üzgəci varmı?
2. Delfinlər nə ilə qidalanırlar?
3. Delfinlər sürü halında, yoxsa tək yaşayırlar?
4. Delfinlər bir-birinə məlumatları necə ötürürlər?
5. Delfinlər neçə il yaşayırlar?

## Düşün və cavab ver

**E** **Verilən cümlələri hansı yarımbaşlıqlara aid etmək olar?**

1. Delfin hər dəfə bir bacarığını nümayiş etdirdikdə məşqçi tərəfindən xırda balıqla mükafatlandırılır.
2. Beyninin ölçüsünə görə delfin insandan o qədər də fərqlənmir.
3. Delfin balıqçılara sürü halında toplaşan balıqların yerini nişan verir.
4. Delfinlər 14000 səs siqnalından istifadə edirlər.

**Söz boğçası**

- delfinari
- qəlsəmə
- ağ ciyər
- pulcuq

**• Delfin danışa bilirmi?**

Delfinlər bir-biri ilə səs siqnalları vasitəsilə ünsiyyət qururlar. Müxtəlif məlumatları ötürmək üçün onlar minlərlə siqnaldan istifadə edirlər: bir-birinə təhlükə haqqında xəbərdarlıq edirlər, balalarını çağırırlar və s.

**• Nəyə görə delfini insanın dostu hesab edirlər?**

Delfin insanlardan qorxmur. Heç nədən çəkinmədən onlarla yanaşı üzə bilir. Amerikada bir qadın dənizdə çimərkən huşunu itirir. Özünə gələndə hiss edir ki, onu kimsə itələyir. Bu, delfin idi. O, qadını burnu ilə itələyib sahilə çıxarır, onu ölümdən xilas edir.

**• Delfini əhliləşdirmək olarmı?**

Delfini hovuzda saxlayaraq əhliləşdirirlər. O, voleybol oynayır, səbətə top atır, halqanın içindən tullanır, şamı üfürüb söndürür və qidasını qabdan yeyir. Delfin məşqçisini kürəyində gəzdirməyi də bacarır. Delfinlərin bu hərəkətlərini izləmək üçün xüsusi delfinarilər var.



**• Bu, maraqlıdır.**

Deyilənə görə, bir gün balıqçıların toruna delfin düşür. Koyranos adlı bir nəfər delfini onlardan satın alır və suya buraxır.

Çox keçmir ki, Koyranos olan gəmi dənizdə fəlakətə uğrayır.

Gəmidə olan bütün sərnişinlər suda batırlar. Yalnız Koyranos sağ qalır. Belə ki, vaxtilə xilas etdiyi delfin onu kürəyinə alıb sahilə çıxarır.

**2 A** **Delfin haqqında hansı məlumatlar sizə maraqlı və qəribə gəldi? Bu haqda daha nə bilmək istərdiniz?**

## DELFİN İNSANLARI NƏ ÜÇÜN XİLAS EDİR?



Suda boğulan insanları xilas edən delfinlər haqqında çox eşidirik. Görəsən, onlar bunu nə üçün edirlər? Doğrudanmı, delfinlər insanların dostudurlar? Bu barədə araşdırma aparan alimlər müxtəlif fikirlər irəli sürürlər.

Delfinlər sürü şəklində yaşayırlar və həmişə bir-birinə yardım edirlər. Əgər delfinlərdən biri yaralanarsa, digər delfinlər onu suyun üzünə qaldırırlar ki, nəfəs alsın. İnsan suda batarkən delfin hiss edir ki, o boğula bilər. Ona görə də, adəti üzrə, batan varlığı suyun üzünə qaldırır.

Bəzi araşdırmaçılar isə bunu delfinlərin əyləncəsi hesab edirlər. Suda batıb-çıxan, əl-qol atan hər hansı canlı görəndə delfinlər də ona qoşulurlar. Təhlükədə olan insanı belinə alır, atıb-tutur, hətta sahilə çıxarırlar. Kənardan elə görünür ki, delfin insanı xilas edir. Halbuki o, sadəcə, əylənir.

Digər fikir odur ki, delfinlər bunu öz qida ehtiyatlarını qorumaq üçün edirlər. Öz qidasını paylaşmaq istəməyən delfinlər insanı sudan uzaqlaşdırmağa çalışırlar. Beləliklə, insan xilas olur, balıqlar isə delfinə qalır.

Əlbəttə, bütün bunlar yalnız mülahizələrdir, yəni sübut olunmamış fikirlərdir. Ümid edək ki, delfinlər, həqiqətən də, suda batan insanlara xoş niyyətlə kömək edirlər.

## Nə anladın?

**B** **Mətndə delfinlərin insanı xilas etməsi ilə bağlı hansı fikirlər var? Siz hansı fikirlə razısınız? Cavabınızı əsaslandırın.**

• Yadda saxla • **İNFORMATİV MƏTNDƏ MÜLAHİZƏLƏR**

Elə informativ mətnlər var ki, müəyyən bir suala aydınlıq gətirmək üçün yazılır. Belə mətnlərdə araşdırılan sualla bağlı müxtəlif **mülahizələr** irəli sürülür.

## Təqdimat

**C** **"Dinozavrların nəsli niyə kəsildi?" mövzusunda araşdırma aparın. Bu haqda öz mülahizələrinizi təqdim edin.**

# Ümumiləşdirici təkrar

**A** **Məlumat vərəqlərini oxuyun. Verilmiş məlumatlar əsasında müqayisə cədvəli tərtib edin.**

**CEYRAN**



1. Yaşayış tərzi – sürü halında.
2. Ömür müddəti – 10-12 il.
3. Qidalanması – ot və bitkilər.
4. Quyruğu – uzun.
5. Rəngi – qonur.
6. Buynuzu – kiçik.

**MARAL**



1. Yaşayış tərzi – sürü halında.
2. Ömür müddəti – 30 ilə qədər.
3. Qidalanması – ot və bitkilər.
4. Quyruğu – qısa.
5. Rəngi – qonur.
6. Buynuzu – iri.

**B** **Tərkibindəki fərqləndirilmiş sözləri düzgün yazmaqla cümlələri köçürün .**

1. *Məsdan gupbultu* ilə yerə dəydi.
2. Tonqalın *tüsdüsü* yaxınlıqdakı *bitgiləri* soldurmuşdu.
3. Uşaqlar ekskursiya *hakqında* danışmaq *isdəyirdilər.*
4. Əli hər *həfdəsonu mürəkgəb* tapşırıqlar üzərində işləyirdi.
5. *Səfdər* bütün meyvələri, *hətda* tumturş alçanı *işdaha* ilə yeyirdi.

**C** **Əlamət bildirən sifətləri seçib cümlədə işlədin.**

*mavi, çalışqan, hazırcavab, qısa, çəhrayı, ədalətli, qorxaq, yaşıl, isti, ağ*

**Ç** **Cümlələri köçürün. Cümlələrin məqsədə görə növünü müəyyən edin. Uyğun durğu işarəsi ilə tamamlayın.**

1. Bəbir maralın düşmənidir
2. Heyvanları incitmə
3. Bu bölmədə hansı qəribə heyvanlarla tanış oldunuz
4. Azərbaycan qoruqlarında ceyran yaşayır
5. Meşələri çirklənmədən qoruyun
6. Heyvanları qorumaq üçün nə etməliyik

# 4 TƏBİİ FƏLAKƏTLƏR

**A** **"Təbii fəlakət" dedikdə nə başa düşürsünüz?**

**B** **Təbii fəlakətlər haqqında tapmacaları oxuyun. Açmasını tapın.**

Bu küləyin qəzəbi
Dağıdır yeri, göyü.
Nahaq yerə demirlər:
"Küləyin ən böyüyü".
Dənizlərdən qalxır o,
Gördüyünü yıxır o.
"Qan-qan" deyən davadır,
Boran, ya fırtınadır?



**Söz boğçası**

- fırtına
- daşqın
- yataq
- tufan
- püskürmək
- boran
- sunami
- faciə
- vulkan

Okeandan sahilə
Güllə kimi yayılır.
Zəlzələtək, vulkantək
Faciəli sayılır.
Alır dalğalarına
Qarşısına çıxanı.
Uşaqlar, bu fəlakət,
Sizcə, necə adlanır?





Yamyaşıl meşələrə
Hərdən quraqlıq düşür.
Qupquru ağaclara
Haradansa od düşür.
Çoxlu canlı məhv olur,
Meşə bürünür hisə.
Deyin, necə adlanır
Bu dəhşətli hadisə?



Çox vaxt yatır yerində
Quzutək mışıl-mışıl.
Ayıldı, üzün görmə,
Qəfil kükrəyib-daşır.
Odu, qazı, palçığı
Püskürür yerdən göyə.
Necə ad vermək olar,
Sizcə, bu hadisəyə?

Yaz gələndə əriyir
Dağ başında olan qar.
Gedib çaya tökülür
Ərklə axan bu sular.
Bir gün bu qəzəbli çay
Yatağından çıxacaq.
Siz deyin, ay uşaqlar,
Onda nə yaranacaq?





Silkələnmə, titrəyiş
Hər yana dəhşət saçır.
Rahat durduğun yerdə
Ayaq altdan yer qaçır.
İnsanların içinə
Düşür qorxu, vəlvələ.
Bu hansı fəlakətdir:
Tufan, yoxsa zəlzələ?

*Şəhla Zahidova*

## C Qruplarla iş

**Şəkillərdən və tapmacalardakı əlamətlərdən çıxış edərək təbii fəlakətlər haqqında təqdimat hazırlayın.**

# SEL

**1 A Kür çayına bəzən "dəli Kür" deyirlər? Sizcə, bunun səbəbi nədir?**

## XİLASKAR

Gözəl bir yaz səhəri idi. Yatağımda xumarlanırdım. Birdən qulağıma uğultu səsi gəldi. Getdikcə səs gücləndi. Sonra camaatın qışqırtısını eşitdim: "Kür daşıb!" Yerimdən dik atılıb artırmaya çıxdım.

Boz dalğalar gurultu ilə sahildəki qayalara çırpılırdı. Aşıb-daşan çay qollu-budaqlı ağacları çör-çöp kimi qoynuna alıb aparırdı. Mən tez həyətə düşdüm. Kürün sahilindəki kələ-kötür qayaların üstü tamaşaya çıxan insanlarla dolu idi. Qonşularımız Rizvan və Qədir də oradaydılar.

Birdən Rizvan çayın yuxarı tərəfini göstərərək çığırdı:

– Ora baxın!

Çayın ortasında bir daxma dalğaların üstündə ləngərləyə-ləngərləyə gəlirdi. Qədir təlaşla qışqırdı:

– Vay-vay! Ay camaat, daxmanı sel aparır! İçində adamlar var! Deyəsən, dəyirmançının ailəsidir... Yazıqlar!

Hamı həyəcanla baxır, daxmadakı adamların halına acıyırdı.



Birdən sürətlə gələn daxma çaya batmış ağacın şaxlarına ilişib dayandı. Hamının gözündə bir ümid qığılcımı parıldadı.

Daxmanın qapıları taybatay açıq idi. İçəridə bir kişi və qadın göründü. Kişi kəndin dəyirmançısı idi. O, əllərini yellədərək nə isə qışqırırdı. Qadın isə körpəsini başının üzərinə qaldırıb ağlaya-ağlaya camaatdan imdad diləyirdi.

Rizvan anasına baxdı. Gilas xala göz yaşlarını silərək yeganə övladına yalvarış dolu nəzərlərlə baxdı:

– Ay oğul...

Rizvan cəld əlini paltar iplərinə atdı, onları qoparıb möhkəmcə bir-birinə bağladı. Qədir ipin bir ucunu Rizvanın belinə, bir ucunu isə tut ağacına bərkitdi. Rizvan çaya atıldı. Anası əllərini göyə açıb nə isə pıçıldayırdı...

Üzə-üzə daxmaya çatan Rizvan əlindəki kəndiri daxmanın tirinə bərkitdi. Qədir ehtiyatla ipi çəkməyə başladı. Kəndin başqa cavanları da ona kömək etdilər. Daxma yavaş-yavaş sahilə yan aldı.

Gilas xala çox xoşbəxt idi. O, dəyirmançının körpə qızını anasından alıb qucağına götürdü və dedi:

– Rizvanın qonaqları bizə gedəcək. Evimiz dar olsa da, ürəyimiz genişdir.

*Abdulla Şaiq*



**• Söz boğçası •**

- xumarlanmaq
- tir
- şax
- artırma
- təlaşla
- yeganə
- ləngərləmək

## Nə anladın?

**B** **Mətnə əsasən suallara cavab verin.**

*1. Mətndə hansı təbii fəlakətdən danışılır?*
*2. Daxmada kim var idi?*
*3. Necə oldu ki, daxma çayın ortasında dayandı?*
*4. Dəyirmançının ailəsi necə xilas oldu?*

## Düşün və cavab ver

**C** **Sizcə, nə üçün “Ay oğul...” deyən Gilas xala cümləsini tamamlamadı?**

**Ç** **Abdulla Şaiq ana və oğul obrazları vasitəsilə hansı mənəvi dəyərləri diqqətə çatdırmaq istəyir?**

**D** **Dinlədiyiniz “Amansız Kür” mətni ilə oxuduğunuz mətni mövzu, məzmun və ideya baxımından müqayisə edin.**

**2 A** **“Xilaskar” mətni kimin dilindən nəql edilir? Müəllif bu mətndə oxucuya hansı hadisə ilə bağlı məlumat çatdırır?**

• Yadda saxla • **XƏBƏR – HADİSƏ HAQQINDA MƏLUMAT**

Hər hansı hadisə haqqında məlumat yazarkən aşağıdakı tövsiyələrə əməl etmək lazımdır:

1. *Mətnin başlığında hadisənin adı çəkilir.*
2. *Girişdə hadisə haqqında ümumi məlumat verilir.*
3. *Əsas hissədə hadisə ilə bağlı faktlar sadalanır, hadisəni görmüş insanların danışdıqları əks olunur.*
4. *Sonluqda hadisəyə münasibət bildirilir və ya hadisənin nə ilə nəticələndiyi göstərilir.*

**B** **Kür çayının daşması ilə bağlı müxbir bir neçə rayonda olmuşdur. O, hadisə yerindən xəbər hazırlamışdır. Onun yazdığı xəbəri oxuyun. Mətnin giriş, əsas, sonluq hissələrini müəyyən edin.**

## KÜRÜN TÖRƏTDİYİ FƏLAKƏT

Dağlarda qarın əriməsi və leysan yağışlar nəticəsində Kür çayının səviyyəsi xeyli qalxmışdır. Bir çox rayonlarda çay öz yatağından çıxmışdır. Ətraf kəndləri su basmışdır.

Yüzlərlə ev su altında qalmışdır. Kəndlərin əhalisinə xeyli ziyan dəymişdir. Yüzlərlə qoyun-quzu, mal-qara tələf olmuşdur. Evlər uçmuş, əkin yerləri su altında qalmışdır.

Rayon sakini Həsən Mürşüdov bizimlə söhbətdə dedi:

– Sel gecə vaxtı qəflətən gəldi. Biz əşyalarımızı götürməyə macal tapmadıq. Mənim 6 inəyimi su apardı.

Hadisə ilə bağlı dövlət komissiyası yaradılmışdır. Komissiya üzvləri təbii fəlakətin nəticələrinin aradan qaldırılması üçün rayonlara yola düşmüşlər.

• Söz boğçası •
- səviyyə
- leysan
- komissiya

**C** **İştirak etdiyiniz sonuncu tədbir – ad günü, bayram şənliyi, ekskursiya və s. haqqında məlumat yazın.**

# Dil qaydaları

**3 A Cümlələri oxuyun. Fərqləndirilmiş sözlərin tərkibində hansı sözlər var?**

1. ***Aşıb-daşan*** çay ***qollu-budaqlı*** ağacları qoynuna alıb aparırdı.
2. Gilas xala çox ***xoşbəxt*** idi.

**• Bunları bilməliyik • MÜRƏKKƏB SÖZLƏR**

İki və ya daha artıq söz birləşərək mürəkkəb söz yarada bilir:

dörd + künc → **dördkünc**

qohum + qardaş → **qohum-qardaş**

tez + tez → **tez-tez**

əl + üz + yuyan → **əlüzyuyan**

**B Verilmiş cümlələrdə mürəkkəb sözləri tapın və onların tərkib hissələrini müəyyən edin.**

*1. Dəniz sahilində çoxlu balıqqulağı var idi.*
*2. Binanın üzərində üçrəngli bayrağımız dalğalanırdı.*
*3. Usta Ramizin paltarı toz-torpaq içində idi.*
*4. Uşaqlar çoxlu itburnu yığdılar.*
*5. Novruz xonçasında rəngbərəng yumurtalar var idi.*

**C Verilmiş mürəkkəb sözləri tərkib hissələrinə ayırın. Mənası olmayan sözləri müəyyən edin.**

*çör-çöp, yır-yığış, kağız-kuğuz, zir-zibil, qara-qura, xırda-mırda, qonum-qonşu*

**• Diqqət et •**

Elə mürəkkəb sözlər var ki, ayrılıqda mənası olmayan sözlərin iştirakı ilə yaranıb. Məsələn:
***kələ-kötür***, ***mer**-meyvə*

**Ç Sözlər arasında uyğunluğu müəyyən edərək mürəkkəb sözlər yaradın.**

| Yaxınmənalı sözlər | | Əksmənalı sözlər | |
|---|---|---|---|
| *gözəl* | *nəticə* | *dost* | *çox* |
| *kitab* | *tanış* | *böyük* | *tez* |
| *dost* | *göyçək* | *gec* | *kiçik* |
| *nəvə* | *ənənə* | *səhər* | *düşmən* |
| *adət* | *dəftər* | *az* | *axşam* |

# MEŞƏ YANĞINLARI

**1 A Sizcə, meşədə yanğın hansı səbəblərdən baş verə bilər? Hansı halda buna təbii fəlakət demək olar?**

**İKİ ANA** | **1-ci hissə**



Sizə danışacağım bu əhvalat 2019-cu ilin oktyabr ayında Avstraliya meşələrində baş vermişdi. Artıq neçə ay idi ki, bu ərazidə dəhşətli quraqlıq davam edirdi. Meşələr yağış üzü görmürdü.

Təbiətin bu amansızlığı ana koalanın heç vecinə də deyildi. O, hündür evkalipt ağacının budağında yaşayırdı. Günün iyirmi saatını yatırdı. Oyananda evkaliptin yarpaqlarından yeyirdi, suya da gərək qalmırdı. Bir sözlə, yeri rahat, qarnı tox, özü isə xoşbəxt idi. Niyə xoşbəxt idi? Çünki yenicə doğulmuş körpəsini böyüdürdü. Bala koala da anasının kisəsində, çox təhlükəsiz yerdə ana südü ilə qidalanaraq qayğısız böyüyürdü.

Əhvalat baş verən gün axşamtərəfi qəflətən meşə süd kimi ağ işığa qərq oldu. Bu, göydə çaxan şimşəyin işığı idi. Bunun ardınca möhkəm şaqqıltı ilə göy guruldadı. Gözlənilmədən şimşəkdən düşən od qollu-budaqlı bir ağacı alovlandırdı. Qupquru ağac çırtıltıyla yanmağa başladı. Bir göz qırpımında alov digər ağaclara da keçdi. Nəhayət, bütün meşə çırthaçırtla od tutub yanmağa başladı. Ağaclarda yaşayan bütün heyvanlar sürətlə aşağı enməyə başladılar. Yanğının çırtıltısı ilə heyvanların çığır-bağırı bir-birinə qarışmışdı. Çox vahiməli mənzərə idi.



Ana koala da bacardığı qədər sürətlə ağacdan aşağı endi. Əvvəl duruxub qaldı. Bilmədi, hansı tərəfə qaçsın. Sonra bir kenquru gördü. Onun da kisəsində balası vardı. Kenqurunun bədənində yanıq izləri görünürdü. O, yanğının içindən çıxıb gəlmişdi.

Koala düşündü: "Əgər kenquru bir dəfə yanğından qaçıb canını qurtarıbsa, ona qoşulub qaçmaq lazımdır".

Kenquru bir anlığa dayanıb koalaya və onun kisəsindəki balasına baxdı. Başa düşdü ki, bu balaca heyvanın onun köməyinə ehtiyacı var. Onlar birlikdə meşədən çıxmaq üçün sağa-sola baxaraq yol aramağa başladılar. Kenquru iri sıçrayışlarla irəli qaçır, sonra arxaya dönüb koalanı gözləyirdi. Amma hara gedirdilərsə, qarşılarına yanan ağaclar çıxırdı. Bir tərəfdən isti, o biri tərəfdən tüstü yazıq heyvanları əldən salmışdı.



## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

*1. Meşə yanğını harada, nə vaxt baş vermişdi?*
*2. Yanğının səbəbi nə idi?*
*3. Koala nə üçün kenquruya qoşuldu?*
*4. Heyvanların meşədən çıxmasına nə mane olurdu?*

**C** **Meşədə yanğının vahiməsi hansı epizodda daha aydın hiss olunur?**

## Düşün və cavab ver

**Ç** **Oxuduğunuz mətnə istinad etməklə suallara cavab verin.**

- Koala ilə kenqurunun hansı oxşar və fərqli cəhətləri var?
- Kenqurunu müsbət obraz adlandırmaq olarmı?

• Yadda saxla • **İSTİNAD VƏ ƏSASLANDIRMA**

Hər hansı sualla bağlı fikrimizi əsaslandırmaq üçün biz müxtəlif mənbələrə müraciət edirik. Buna **istinad** deyilir.

**2 A** **Necə düşünürsünüz, heyvanlar yanğından xilas ola biləcəklərmi? Sizin fikrinizcə, onlara bu işdə kim kömək edə bilər?**

**2-ci hissə** Birdən onlar qarma-qarışıq insan səsləri eşitdilər. Qarşıda, yanan ağacların arxasında bir neçə adam göründü. Adamlar ora-bura qaçır, alovu su ilə söndürməyə çalışırdılar.

Başqa vaxt olsaydı, kenquru da, koala da bu ikiayaqlı canlılardan uzaq durmağa çalışardılar. Amma indi... Nədənsə hiss etdilər ki, özlərini insanlara çatdırsalar, xilas olarlar.

İnsanlarla onların arasındakı yanğın zolağının eni 5-6 metr olardı. Burada ağaclar balaca idi. Alovun dilimləri 3 metrə çatırdı. Kenquru bu alovun üstündən tullana bilərdi. Bəs koala? O, otların arasında büzüşüb yazıq-yazıq kenquruya baxırdı. Kenquru da günahkar nəzərlərlə son dəfə koalaya, sonra isə öz balasına baxdı. O, var gücünü toplayıb alovun üstündən tullandı.

İndi koala tək qalmışdı. O, kisədəki balasına nəzər saldı. Bir cüt balaca göz kisədən ona baxırdı. Sanki demək istəyirdi: “Nə olub, anacan? Sən niyə qorxursan?”

Birdən yuxarıdan gurultu səsi gəldi və yanan ağacların üzərinə şəlalə kimi su töküldü. Bu, yanğınsöndürən helikopter idi. Yanğın zolağında kiçik bir dəhliz yarandı. İnsanlardan biri oradan keçib koalaya yaxınlaşdı. Cəld onu balası ilə birlikdə qucağına alıb geri döndü. Qaça-qaça pıçıldayırdı:

– Qorxma, balaca, biz səni xilas edəcəyik.

Koala onu başa düşmürdü. Amma hiss edirdi ki, insanlar onu və balasını xilas edəcəklər...

*Şəhla Zahidova*



## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

*1. İnsanlar meşəyə nə məqsədlə gəlmişdilər?*
*2. Kenquru və koala insanları görəndə hansı hissləri keçirdilər?*
*3. Hansı heyvan yanğın zolağını keçə bildi?*
*4. Koala yanğından necə xilas oldu?*

## Düşün və cavab ver

**C** **"İki ana" mətninin hekayə xəritəsini tərtib edin.**

**Ç** **Nə üçün kenquru koalaya günahkar nəzərlərlə baxdı? Sizcə, o danışa bilsəydi, koalaya nə deyərdi?**

**D** **Sizcə, koala ilə kenqurunun taleyi necə olacaq? Hekayəni təxəyyülünüzə uyğun davam etdirin.**

**3 A** **Sizcə, "İki ana" mətni bədii mətndir, yoxsa elmi? Fikrinizi əsaslandırın.**

• Yadda saxla • **TƏXƏYYÜL VƏ FAKT**

Mətni oxuyarkən təxəyyülü faktdan fərqləndirmək lazımdır.
**Təxəyyül** müəllifin hadisələri öz xəyalına uyğun təsvir etməsidir.
**Fakt** isə həqiqi məlumatdır. Onun həqiqiliyini müxtəlif mənbələr vasitəsilə yoxlamaq olar: internet, ensiklopediya, dərslik və s. Elmi mətndə əks olunan fikirlər dəqiq faktlara əsaslanır. Bədii mətndə isə təxəyyülə yer verilir.

**B** **"İki ana" mətnində təsvir edilmiş hadisələrin fakt, yoxsa təxəyyül olduğunu təxmin edin.**

*1. 2019-cu ilin payızında Avstraliyada quraqlıq idi.*
*2. Koala evkaliptin yarpaqları ilə qidalanır və kisədə balasını bəsləyir.*
*3. Koalanın yeri rahat, qarnı tox, özü isə xoşbəxt idi.*
*4. Kenquru da balasını kisəsində saxlayır.*
*5. Kenquru irəliyə doğru qaçır, sonra dayanıb koalanı gözləyirdi.*
*6. Koala və kenquru başa düşdülər ki, insanlar onları xilas edə bilərlər.*
*7. Avstraliyadakı meşə yanğınında insanlar bir çox heyvanları xilas etdilər.*

**C** “Meşə yanğınları” və “Kenquru” məlumat vərəqlərini oxuyun. Burada verilmiş məlumatları “İki ana” mətnindəki faktlarla müqayisə edin.

## Meşə yanğınları




| | |
|---|---|
| Məkan | Avstraliyanın cənub-şərqi |
| Zaman | 2019-cu il, sentyabr-dekabr |
| Səbəbləri | Güclü quraqlıq, ildırımlar |
| Fəsadları | 2500-dən çox ev yandı, 27 insan, milyonlarla heyvan tələf oldu. |




Avstraliyada yaşayan heyvanlar arasında kenquru və koala çoxluq təşkil edir. Yanğından sonra bu heyvanlar nəsli kəsilmək təhlükəsi ilə üzləşmişlər.



İnsanlar minlərlə koalanı alovdan xilas edə bildilər.

## Kenquru




Ana kenquru balasını kisəsində bəsləyir.



12 metr uzununa, 3 metr hündürlüyə tullanır.

- 23 ilə qədər
- Sürü şəklində
- 1,4 metrə yaxın
- 90 kiloqram
- Otyeyən

**Ç** **Əldə etdiyiniz məlumatlara istinad etməklə “İki ana” mətnindəki faktların həqiqiliyi haqqında fikir yürüdün.**

• Nümunə •

**“İki ana” mətnində** deyilir ki, kenquru eni 5-6 metr, hündürlüyü 3 metr olan yanğın zolağının üstündən tullandı.

**Kenquru haqqında məlumat vərəqində** deyilir ki, kenquru 12 metr uzununa, 3 metr hündürlüyə tullana bilir.

**Nəticə:** “İki ana” mətnindəki fakt həqiqətə uyğundur.

**D** **Yeni öyrəndiyiniz hansı məlumatlar “İki ana” mətnində öz əksini tapmayıb?**

## Dil qaydaları

**4 A** **"İki ana" mətnində işlənmiş mürəkkəb sözlərə diqqət edin.**

*ikiayaqlı, çığır-bağır, ora-bura, yanğınsöndürən, sağa-sola, qollu-budaqlı, axşamtərəfi*

- **Bu sözləri aşağıdakı kimi qruplaşdırın:**

*1) yaxınmənalı sözlərin birləşməsindən yaranan mürəkkəb sözlər;*
*2) əksmənalı sözlərin birləşməsindən yaranan mürəkkəb sözlər;*
*3) müxtəlifmənalı sözlərin birləşməsindən yaranan mürəkkəb sözlər.*

- **Hansı qrupdakı sözlər bitişik yazılır?**

• Bunları bilməliyik • **MÜRƏKKƏB SÖZLƏRİN YAZILIŞI**

Mürəkkəb sözün tərkibindəki sözlər yaxınmənalı və ya əksmənalıdırsa, onların arasında **defis** (-) qoyulur. Məsələn: *söz-söhbət, qol-qanad, yalan-gerçək, yer-göy, açıq-aşkar, dərə-təpə.*
Mürəkkəb sözün tərkibindəki sözlərin mənası müxtəlifdirsə, onlar **bitişik** yazılır. Məsələn: *çobanyastığı, günorta, ayripəncə, yerüstü, başıaçıq, soyuqqanlı.*

**B** **Verilmiş sözlərdən mürəkkəb sözlər düzəldərək yazın.**

*gül, çiçək; doğru, dürüst; toz, soran; günə, baxan; açıq, aydın; dost, tanış; addım, başı; dağ, dərə; göy, qurşağı; gecə, gündüz; səhər, axşam; meşə, bəyi; kəklik, otu; ev, eşik; eniş, yoxuş.*

**C** **Verilmiş cümlələrdə səhv yazılmış mürəkkəb sözləri müəyyən edin. Həmin sözləri nümunəyə əsasən düzgün yazın.**

• Nümunə •

| Yazılıb | Yazılmalıdır | Əsaslandırma |
|---|---|---|
| *dəvə-quşu* | *dəvəquşu* | *Dəvə və quş müxtəlifmənalı sözlərdir.* |

*1. Ana qab-yuyan maşını işə saldı.*
*2. Ağac-dələn həşəratlarla qidalanır.*
*3. Küləyin qaldırdığı toztorpaq evə dolurdu.*
*4. Həyati səsküy bürümüşdü.*
*5. Qaydaqanun hamı üçündür.*
*6. Uşaqlar Azadı azçox tanıyırdılar.*

fəsil 3

# DƏNİZDƏ FIRTINA

## 1 A Neft Daşları haqqında nə bilirsiniz?

**NEFT DAŞLARINDA** | **1-ci hissə**

– Diqqət, diqqət! Dənizdə 10-11 bal gücündə fırtına gözlənilir! Diqqət, diqqət...

Diktorun həyəcanlı səsi bütün Neft Daşlarına yayıldı.

Çox keçmədi ki, qorxunc bir uğultu qopdu. Dəhşətli külək dənizi təlatümə gətirdi. Cəmi bir saat əvvəl gözoxşayan mavi dalğalar indi bozararaq yüksəyə qalxır, qəzəblə estakadaya çırpılırdı. Külək dənizin duzlu suyunu şillə kimi adamın üzünə vurur, göz açmağa imkan vermirdi.

Estakadada addım atmaq mümkün deyildi. Neftçilər yıxılmamaq üçün əl-ələ tutur, bir-birinə kömək edərək otaqlara doluşurdular.

Birdən həyəcanla ora-bura boylanan ustanın səsi eşidildi:

– Bəs Arif hanı? Səməd hanı? Ay aman!.. Buruğa qalxmışdılar. Aaariiif!

Usta elə qışqırdı ki, sanki dalğaların səsini batırmaq istəyirdi.

O, qapıdan çıxmaq istəyəndə fəhlələr qolundan tutdular:

– Dayan, usta. Tək gedə bilməzsən. Dalğa dənizə atar.

Usta əlləri ilə başını tutub çarəsiz halda dilləndi:

**Söz boğçası**
- diktor
- təlatüm
- estakada
- nasazlıq
- bal
- buruq
- kəskinləşmək






– Buruqda nasazlıq var idi. Ariflə Səmədi göndərdim ki, təmir etsinlər. Kaş özüm gedəydim.

Fəhlələrdən bir neçəsi çölə çıxıb buruğa sarı boylandı. Heç nə görünmürdü. Onlar bir-birinin qolundan yapışıb dostlarının köməyinə yollandılar...

Xilasedici qayıq estakadaya yaxınlaşmağa çalışırdı. Lakin fırtına imkan vermirdi. Vəhşi külək qayığı yerində fırfıra kimi fırladırdı. Hətta az qala çevirəcəkdi. Vəziyyət anbaan kəskinləşirdi. Nəhayət, qəhrəman dənizçilər birtəhər estakadaya yaxınlaşdılar. Neftçilər çox çətinliklə qayığa mindilər.

## Nə anladın?

**B** **Aşağıdakı izahlar söz boğçasındakı hansı sözlərə aiddir**?

*1. Hər hansı məlumatı oxuyaraq insanlara çatdıran peşə sahibi*

*2. Bərk dalğalanma, coşma*

*3. Dənizdə metal dirəklər üzərində dayanan qurğu*

**C** **Mətnə aid suallara cavab verin.**

*1. Dənizdə fırtına olacağını kim xəbər verdi?*

*2. Mətndə fırtınanın gücü necə təsvir olunub?*

*3. Neftçilər fəlakətdən qorunmaq üçün nə etdilər?*

*4. Usta niyə narahat oldu?*

*5. Ariflə Səməd nə üçün buruğun başına çıxmışdılar?*

## Düşün və cavab ver

**Ç** **Sizcə, bu mətni bitmiş hesab etmək olarmı? Hansı obrazların taleyi məlum olmadı? Siz mətni necə davam etdirərdiniz?**

## 2 A Mətnin davamını oxuyun, təxminlərinizlə müqayisə edin.

**2-ci hissə**

Evdə hamı narahat idi. Elşad həm televizorda xəbərləri izləyir, həm də pəncərədən bayıra baxırdı. Sanki ağacların əyilməsinə görə küləyin gücünü müəyyən etmək istəyirdi.

Ana bayaqdan kompüterin qarşısında idi. Neft Daşlarında vəziyyət haqqında bir xəbər tapmağa çalışırdı.

Hərdən o biri otaqdan nənənin səsi gəlirdi:

– Ay bala, Arifdən xəbər var?

Elşadın anası isə hər dəfə:

– Hə, ay ana, indicə danışmışıq, – deyə onu sakitləşdirirdi.

Elşad bayaqdan televizordan eşitdiyi sözləri qorxa-qorxa beynində götür-qoy edirdi: “10-11 **bal...** 10-11 **bal...** Görəsən, bu nə qədər təhlükəlidir?” O, kompüterin arxasına keçib “fırtına” sözünə axtarış verdi. Nəhayət, lazım olan informasiyanı tapdı:

8 bal – şiddətli külək; saniyədə 17-20 metr;
9 bal – fırtına; saniyədə 21-24 metr;
10 bal – güclü fırtına; saniyədə 25-28 metr;
11 bal – şiddətli fırtına; saniyədə 29-32 metr;
12 bal – qasırğa; saniyədə 32 metrdən çox.



Elşad anasına yaxınlaşdı. Yanında oturub böyrünə qısıldı:

– Ana, indi dənizdə şiddətli fırtınadır. Saniyədə 30 metr. Görəsən, atam...

Səsi titrədi. Hiss etdi ki, indi ağlayacaq. Amma sonra özünü ələ alaraq atasının sözlərini birbəbir xatırladı: “Mən günlərlə dənizdə oluram. Evdə yeganə kişi sən qalırsan. Gərək özünü kişi kimi aparasan. Anana, nənənə dayaq olasan”.

Ana Elşadın keçirdiyi hissləri başa düşdü:

– Atan  gələcək, oğlum, mütləq gələcək, –  deyə Elşadın saçlarından öpdü.

Elə bu zaman televizorun səsi otağa yayıldı. Ustadan müsahibə alırdılar:

– Siz  bugünkü hava proqnozu ilə tanış idiniz?

– Bəli, biz hər gün sinoptiklərin məlumatını öyrənirik. Bu gün də fırtına olacağından xəbərdar idik. Lakin buruqda nasazlıq qəflətən baş verdi. Fədakar neftçilərimiz öz həyatlarını təhlükə ilə üz-üzə qoyub nasazlığı aradan qaldırdılar. Əgər buruq estakadaya aşsaydı, fəlakət baş verərdi. Xilasedicilərin səyi nəticəsində hal-hazırda qəhrəman neftçilərimizin hər ikisi sağ-salamat Bakıya çatdırılıb.



**Söz boğçası**
- qasırğa
- sinoptik
- proqnoz

Elə bu zaman ananın telefonu zəng çaldı. Arif idi.

– Salam, necəsiniz? Elşad yatmayıb? Bir çay dəmlə, çatıram.

Elşadın ürəyi qürurla döyündü: "Mənim atam qəhrəmandır!" O, atasını layiqli qarşılamaq üçün can-başla anasına kömək etməyə başladı.

*Şəhla Zahidova*

## Nə anladın?

**B** **"Söz boğçası"ndakı sözlərin izahını müəyyən edin.**

*1. Hava haqqında məlumatı öyrənən və çatdıran mütəxəssis*

*2. Hər hansı bir hadisə haqqında əvvəlcədən verilən məlumat*

*3. 12 bal gücündə külək*

**C** **Hansı izah mətndəki "bal" sözünə uyğun gəlir?**

*1. Arıların çiçək və meyvə şirəsindən hasil etdikləri qatı şirin maddə*

*2. Təbiət hadisələrinin (küləyin, zəlzələnin və s.) gücünün ölçü vahidi*

*3. Şagirdin bilik dərəcəsini bildirən qiymət*

**Ç** **Mətnə aid suallara cavab verin.**

*1. Arifin ailəsi onun sağ-salamat olmasını necə öyrəndi?*

*2. Usta "neftçilərimizin hər ikisi" deyərkən kimləri nəzərdə tuturdu?*

**D** **Hansı epizodlar Elşadın öz atasını çox sevdiyini göstərir?**

## Düşün və cavab ver

**3 A** Sizcə, Elşad nə üçün fırtına haqqında məlumat toplamağa çalışırdı?

**B** Necə düşünürsünüz, ananın həqiqəti nənədən gizlətməsi düzgün idi?

**C** Sizin fikrinizcə, aşağıdakı peşə sahibləri öz əmək fəaliyyətləri zamanı hansı təhlükələrlə üzləşə bilərlər?







## Yaradıcı iş

**Ç** Mətndə Neft Daşlarında baş vermiş hadisəni xəyalınızda canlandırın. Bu hadisə haqqında xəbər hazırlayın.

**D** Qruplarla iş

"Neft Daşlarında" mətnindəki hadisə iştirakçıları ilə müsahibə hazırlayın və təqdim edin.

*I qrup:* *Neftçi Ariflə müsahibə*

*II qrup:* *Usta ilə müsahibə*

*III qrup:* *Elşadla müsahibə*

## Dil qaydaları

**4 A** **Aşağıdakı mürəkkəb sözlərin tərkib hissələrinə diqqət edin.**

*tez-tez, qorxa-qorxa, anbaan, birbəbir, tələsə-tələsə*

- **Bu mürəkkəb sözlərin oxşar xüsusiyyətini müəyyən edin.**
- **Bitişik yazılan mürəkkəb sözlər defislə yazılan sözlərdən nə ilə fərqlənir?**

• Bunları bilməliyik • **MÜRƏKKƏB SÖZLƏRDƏ EYNİ SÖZÜN TƏKRARI**

- Eyni sözün təkrarı ilə yaranan mürəkkəb sözlər iki cür yazılır:

| Defislə | Bitişik |
|---|---|
| *asta-asta, gündən-günə, danışa-danışa, üst-üstə* | *get**ha**get, gün**bə**gün dal**ba**dal, baş**a**baş* |

Bitişik yazılan mürəkkəb sözlərdə ***a, ha, ba, bə*** hissəcikləri işlənir.

**B** **Verilmiş mürəkkəb sözləri cədvəl üzrə qruplaşdırıb yazın.**

*səhər-səhər, üzbəüz, qaça-qaça, isti-isti, nigaran-nigaran, fikirli-fikirli, addımbaaddım, taybatay, gəlhagəl*

| Defislə yazılanlar | Bitişik yazılanlar |
|---|---|
| | |

**C** **Səhv yazılmış sözləri seçib düzgün yazın.**

*il-bə-il, yazayaza, bir-bir, ildənilə, birdən-birə, qaça-qaça, rəngarəng, rəng-bərəng, aybaay, əl-ələ, vur-ha-vur, gülə-gülə*

**Ç** **Hərəkət bildirən sözləri elə dəyişin ki, təkrarından mürəkkəb sözlər yaransın. Həmin mürəkkəb sözləri cümlələrdə işlədin.**

*yazmaq, baxmaq, danışmaq, dartmaq, yıxılmaq, görmək, bilmək*

• Nümunə •
gəzmək – *gəzə-gəzə*

**D** **Nöqtələrin yerinə uyğun olaraq defis (-) və ya *a, ha, ba, bə* hissəcikləri yazmaqla cümləları köçürün.**

*1. Evin qapıları tay...tay açıq idi. 2. Qoca asta...asta yeriyirdi. 3. Müəllim şagirdləri ad...ad təriflədi. 4. Bağça rəng...rəng güllərlə dolu idi. 5. Baba və nəvə şirin...şirin söhbət edirdilər. 6. Uşaqlar yan...yan sıraya düzülmüşdülər. 7. Xəstənin vəziyyəti gün...gün yaxşılaşırdı.*

# SUNAMİ

**1 A** **“Təbii fəlakətlər” bölməsinin əvvəlində sunami haqqında verilmiş tapmacanı xatırlayın. Bu təbii fəlakət haqqında bildiklərinizi danışın.**

## OKEANIN QƏZƏBİ

Sunami okeanda baş verən güclü zəlzələ nəticəsində yaranır. Zəlzələ zamanı baş verən titrəyişlər nəhəng dalğalar yaradır. Bu dalğalar sahilə doğru hərəkət etdikcə daha da böyüyür.

Təsəvvür edin: 30-40 metr hündürlüyündə dalğalar böyük sürətlə sahilə hücum çəkir. Bir göz qırpımında yaşayış məntəqələrini su basır. Canlı-cansız nə varsa, hamısı okean sularına qarışır...

**9 iyul 1958-ci il.** Amerikanın şimalında yerləşən Alyaskada güclü sunami baş verdi. Fəlakətin şahidi olmuş bir şəxs danışırdı: “Sunami dalğasının hündürlüyü adamı dəhşətə gətirirdi. Həyəcandan çaşbaş qalmış insanların gözü qarşısında nəhəng dalğa yuxarı qalxdı. Kəndin içərilərinə doğru irəlilədi. Qarşısına çıxan ağacları kökündən çıxardı”.

**11 mart 2011-ci il.** Yaponiyada olan güclü zəlzələ xəbəri bütün dünyaya yayıldı. Okean suları böyük sürətlə şəhərə doğru şütüyürdü. Suyun üzündə bir-birinə qarışmış maşınlar, binalar, adamlar, körpülər insanı dəhşətə gətirirdi. Tezliklə bir neçə şəhər sulara qərq oldu. Minlərlə adam itkin düşdü.

**•Söz boğçası•**
- şığımaq
- şahid
- qamarlamaq
- fəsad



Sunaminin törətdiyi fəsadları aradan qaldırmaq üçün yapon xalqı yumruq kimi birləşdi. Hər kəs bacardığı qədər zərər çəkmiş ailələrə yardım etdi. Yapon xalqının iradəsi bütün dünyaya milli həmrəylik örnəyi oldu.

İnsanlar hələ ki sunami, zəlzələ, vulkan kimi təbii fəlakətlərin qarşısını almaqda acizdirlər. Lakin alimlər bu hadisələri proqnozlaşdırmaq üçün araşdırmalar aparırlar. Təbiətin törətdiyi fəlakətlər haqqında qabaqcadan xəbər tutsaq, ona hazır olarıq. Beləliklə, insan itkisi də az olar.

*İnternet materialları əsasında*

## Nə anladın?

**B** **Mətnə əsasən suallara cavab verin.**

*1. Sunaminin yaranmasına hansı hadisə səbəb olur?*
*2. Sunami dalğalarının hündürlüyü neçə metr olur?*
*3. Alyaskada sunami neçənci ildə baş verib?*

## Düşün və cavab ver

**C** **"Okeanın qəzəbi" mətninin giriş, əsas və sonluq hissələrini müəyyən edin. Hər bir hissəni yarımbaşlıqla adlandırın.**

**2 A** **Cədvələ baxın. Sunami haqqında verilmiş məlumatları cümlələrə çevirərək yazın.**

| Məkan | Zaman | Dalğanın hündürlüyü | İnsan itkisi |
|---|---|---|---|
| Filippin | 1976-cı il | 14 metr | 11 mindən çox |
| Yaponiya | 2011-ci il | 10 metrdən çox | 14 mindən çox |
| Çili | 1960-cı il | 25 metr | 6 min |

**B** **"Azərbaycanda baş vermiş zəlzələlər" mətnini dinləyin və əldə etdiyiniz məlumatları cədvəl üzrə qruplaşdırın.**

| Məkan | Zaman | Zəlzələnin gücü (bal) | İnsan itkisi |
|---|---|---|---|
| | | | |

# DAŞQIN

**1 A** **Evdə dərsə hazırlaşarkən köməyə ehtiyac olanda kimə müraciət edirsiniz?**

## DAŞQININ TƏƏCCÜBÜ

Bir gün Daşqın çağırdı
Sevimli nənəsini:
– Nənə, fəlakət nədir?
Öyrət, bilim dərsimi.
Nənə dedi: "Qulaq as,
Yaxın otur, ay bala.
Bildiyimi söyləyim,
Dərsindən qalma dala.
Təbiətdə çox şeyə
İnsanın gücü çatmır.
Vulkan, uçqun, zəlzələ
Heç ipə-sapa yatmır.
Fırtına yellə gəlir,
Sunami sellə gəlir.
Daşqının şiddətindən
Lal daş da dilə gəlir".
Daşqın dedi: "Ay nənə,
Fəlakətdirsə daşqın,
Bəs onda sən adımı
Niyə qoymusan Daşqın?"
Nənə dedi: "Sən mənim
Günəşimsən, Ayımsan,
Məni ilk nənə edən
Şirin nəvə payımsan.
Dünyaya gəlişindən
Sevincim aşdı-daşdı.
Qoyduğum bu ad sənə
Gör nə gözəl yaraşdı!"

*Şəhla Zahidova*



## Nə anladın?

**B** **Suallara cavab verin. Mətnə istinad etməklə cavabınızı əsaslandırın.**

1. Daşqın nənəsindən hansı sözün mənasını soruşdu?
2. Nənə hansı təbii fəlakətlərin adını çəkdi?
3. Daşqın nənənin neçənci nəvəsidir?

**C** **Şeirdəki *"ipə-sapa yatmır"* ifadəsini necə başa düşürsünüz? Bu ifadəni hansı uşaqlara aid etmək olar?**

## Yaradıcı iş

**Ç** **Şeirin məzmununu ssenari şəklində yazın. Həmin ssenari əsasında tamaşa hazırlayın.**

**2 A** **Şeiri oxuyun və suallara cavab verin.**
- *Neçə banddan ibarətdir?*
- *Hər banddə neçə misra var?*
- *Şeirdə hansı sözlər qafiyələnir?*

**GİCİTKƏN**

Hasarların dibində
Gördüm tala-taladı.
İstədim yığım onu,
Əllərimi daladı.

– Uşaqları incitmə,
Ay davakar gicitkən,
Tikanların var deyə
Hamını incidirsən!

*Zahid Xəlil*

**• Yadda saxla • QAFİYƏ VƏ RİTM**

Şeirdə müəyyən misraların sonluğu oxşar səslənir. Buna **qafiyə** deyilir. Misralarda heca sayının eyni olması isə şeirdə **ritm** yaradır. Qafiyə və ritm şeirə xüsusi gözəllik verir, onu hekayə və nağıldan fərqləndirir.

**B** **Sizcə, şeir yazmaq çətindirmi? Çətinlik yaradan nədir?**

**ADİLİN ŞEİRİ**

3-cü sinifdə oxuyan Adil kiçik bacısı Gülər haqqında şeir yazmaq istədi. Şeirin birinci misrasını yazdı:

*Bizim balaca Gülər...*

Əla! İndi "Gülər" sözünə qafiyə tapmaq lazımdır. Ağlına gələn ilk söz "səhər" oldu. Adil ikinci misranı yazdı:

*İdman edir səhər-səhər.*

Adil hər iki misranı oxudu. Nə isə xoşuna gəlmədi. Bəlkə, qafiyələnən söz "səhər" yox, "hünər" olsun?

*Hər gün göstərir hünər.*

Bax bu, başqa məsələ! Adil şeirinə davam etdi.




## Nə anladın?

**C** **Adilin yazdığı misralarda hecaların sayına diqqət edin. Sizcə, nə üçün "İdman edir səhər-səhər" misrası Adilin xoşuna gəlmədi?**

## Yaradıcı iş

**Ç** **Siz də hər hansı dostunuz, qohumunuz və ya sevimli məşğuliyyətiniz haqqında şeir yazın.**

# Dil qaydaları

**3 A** **“Daşqının təəccübü” şeirini xatırlayın. Nə üçün nənə nəvəsinin adını Daşqın qoyub? Sizcə, hansı söz əvvəl yaranıb: şəxs adı *Daşqın,* yoxsa hadisə adı *daşqın*?**

**B** **Sizcə, övladının adını *Sevinc, Arzu, Coşqun* qoyan valideynlər bunun səbəbini necə izah edərlər?**

**• Bunları bilməliyik •** **XÜSUSİ İSİMLƏRİN YARANMASI**

• Bəzi xüsusi isimlər ümumi isimlərdən yaranıb. Məsələn:


*lalə*


*Lalə*


*aslan*


*Aslan*

• Belə xüsusi isimlərin əksəriyyəti insan adlarıdır. Bəzən sifətlər də xüsusi isim kimi işlənə bilir. Məsələn: *gözəl – Gözəl, sakit – Sakit*

**C** **Hansı ümumi isimlər xüsusi isim kimi işlənə bilər?**
*məktəb, dəniz, külək, damla, daraq, cəsarət, ölkə, səfər, dəftər, nərgiz*

**Ç** **Hansı sifətlər xüsusi isim kimi də işlənə bilər?**
*mehriban, şirin, gödək, kamil, qəribə, çiçəkli, ülvi, zəif, nadir, qorxmaz, yaşıl, göyçək, zərif*

**D** **Ailə üzvlərinizin, dostlarınızın adlarını xatırlayın. Həmin xüsusi isimlərin hansı həm də ümumi isim kimi işlənir?**

**E** **Verilmiş şəxs adları hansı sözdən yaranıb? Həmin sözlərin mənalarını müəyyən edin və onları cədvəl üzrə qruplaşdırın.**
*Yasəmən, Nicat, Mətin, Pərvanə, Vüqar, Qara, Coşqun, Reyhan, Güllü, Vurğun, Nazir, Arzu, Xəyal, İlham, İradə, Şahin, Zümrüd, Bəxtiyar, Mahir*

| Konkret isimlər | Mücərrəd isimlər | Əlamət bildirən sifətlər | Keyfiyyət bildirən sifətlər |
|---|---|---|---|
| | | | |

# Ümumiləşdirici təkrar

**A** **Oxuyun. Nömrələnmiş cümlələrin fakt, yoxsa təxəyyül olduğunu müəyyən edin.**

*1. Sel çayların daşması nəticəsində baş verir.*
*2. Bir gün bir balıqçı dənizdə fırtınaya düşür.*
*3. Fırtınanın gücü 10-11 baldır.*
*4. Avstraliyada meşə yanğınları olur.*
*5. Alabaş hiss etdi ki, indicə zəlzələ olacaq.*
*6. Qağayı havada dövrə vurur, sanki insanları sunaminin gəlişindən xəbərdar etmək istəyirdi.*
*7. Sunamidən əvvəl güclü zəlzələ baş verir.*

**B** **Verilmiş mürəkkəb sözlərin tərkibinə diqqət edin. Onları aşağıdakı cədvəl üzrə qruplaşdırıb yazın.**

*qəndqabı, qaragöz, yastı-yastı, enlikürək, tozağacı, yerfındığı, dilişirin, hazırcavab, diliuzun, dadsız-duzsuz, səsli-küylü, əliəyri, gözüyaşlı*

| isim + isim | isim + sifət | sifət + isim | sifət + sifət |
|---|---|---|---|
| ayaqqabı | sözübütöv | qaraqaş | güllü-çiçəkli |

**C** **Mürəkkəb sözləri düzgün yazmaqla cümləri köçürün.**

*1. Bağa-yarpağı və kəklikotu dərman bitkisidir.*
*2. Aydın sevdiyi şeirləri sətir-bəsətir əzbərləyir, özözünə söyləyirdi.*
*3. Mermeyvə dolu zənbili qapının ağzına qoyan oğlanın üstbaşı toz idi.*
*4. Qardaşının əyriüyrü xəttini görən Əsli üzgözünü turşutdu.*
*5. Dəniz dostlarını adba-ad evlərinə dəvət etdi.*
*6. Dosttanış yanında üzü-ağ olmaq üçün Rəşid gecəgündüz çalışırdı.*

**Ç** **Cümlələrdə səhv yazılmış şəxs adlarını müəyyən edin.**

*1. Güldandakı çiçəklərin suyunu dəyişmək üçün çiçək mətbəxə keçdi.*
*2. Yarışı qazanmaq arzusu arzunu bir an rahat buraxmırdı.*
*3. Ən çox sevdiyi güllü donunu geyindiyi üçün güllü çox sevinirdi.*
*4. Hər il bahar baharın gəlişini səbirsizliklə gözləyir.*
*5. Dənizin coşqun dalğalarını seyr edən coşqun fikrə getmişdi.*
*6. Qardaşım qalib bugünkü yarışda qalib oldu.*

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün*
*Azərbaycan dili fənni üzrə*
***dərslik***
*Tədris dili*
*(1-ci hissə)*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Rafiq İsmayılov**<br>**Ülkər Nurullayeva**<br>**Şəhla Zahidova**<br>**İradə Bayramova**<br>**Aysel Xanalıyeva**<br>**Könül Cəlilova** |
| **Layihə rəhbəri** | **Rafiq İsmayılov** |
| Dil redaktoru | **Dilrüba Cəfərova** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssam | **Elmir Məmmədov** |
| Korrektor | **Fəridə Ziyadova** |


**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2022-004.**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8402-3-0

Hesab-nəşriyyat həcmi 10,8. Fiziki çap vərəqi 13.
Səhifə sayı 104. Kəsimdən sonra: 220 × 275. Kağız formatı: 57 × 90 $^1/_8$.
Şriftin adı və ölçüsü: Calibri, 16 pt. Ofset kağızı. Ofset çapı.
Tiraj: 153 615. Pulsuz. Bakı – 2022.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 04.08.2022

Çap məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş. A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
“Radius” MMC (Bakı ş., Binəqədi şossesi, 53).

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!

